# HƏFTƏ İÇİ

www.hafta.az

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

№ 47 (3463) Cümə axşamı / 8-14 dekabr 2022-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Naxçıvan necə muxtar respublika oldu?!



**Ələmdar Şahverdiyev,**
BDU-nun Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru

***Son dövrdə Naxçıvanın Muxtar Respublika statusunun ləğvi ilə bağlı müxtəlif iddialar irəli sürülür. Bu məsələ xüsusən Naxçıvan Gömrük Komitəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin ləğv edilərək əvəzində mərkəzə, yəni Bakıya tabe olan baş idarələr yaradılmasından sonra daha çox gündəmə gətirilir. Bəzi siyasi ekspertlər hesab edir ki, Azərbaycanın tərkibində ayrıca respublikanın olmasına ehtiyac yoxdur... Bəs görəsən, Naxçıvanın xüsusi statusu hansı tarixi zərurətdən meydana gəlib və hansı real siyasi situasiyada bərqərar olub? Hazırda həmin statusun ləğv edilməsindən danışmaq doğrudurmu?..***

*Muxtariyyət statusu ən azı Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında yerüstü kommunikasiyalar bərpa olunana qədər saxlanmalıdır*

Səh. 7

MÜSAHİB



**Pənah Hüseyn,**
Azərbaycan Xalq Partiyasının sədri

■ Azərbaycan QHT nümayəndlərinin Xankəndinə gedib erməni vətəndaşları ilə görüşünün əleyhinəyəm

■ Sərhədin Rusiya sülhməramlılarının nəzarəti altında olması ilə bağlı bizim müqaviləmiz yoxdur

■ Sülhməramlıların bizim ərazimizdə mövcudluğu Rusiya üçün bəhanədir və bunu axırıncı ana qədər əlindən verməyəcək

Səh. 3

# Rus hərbçilərinin özbaşınalığı

***Dekabrın ilk həftəsi Yuxarı Qarabağ iqtisadi rayonunda müvəqqəti olaraq yerləşdirilmiş rusiyalı sülhməramlılarla bu ərazilərdə qanunsuz mədən fəaliyyəti ilə bağlı monitorinq aparmaq üçün səfər edən Azərbaycanın dövlət qurumlarının nümayəndələri və media təmsilçiləri arasında yaşanan olaylarla yadda qaldı. Qeyd edək ki, ilk belə təşəbbüs dekabrın 3-də reallaşıb. Həmin vaxt qısa müddət ərzində Xankəndi ilə Ermənistanı bağlayan Laçın yolu bir neçə saatlıq bağlı qalıb. Nəhayət, rus sülhməramlılarının rəhbərliyi Azərbaycan dövlət qurumlarının israrlı tələblərindən sonra səfər missiyasının maneəsiz reallaşdırılması ilə bağlı qanuni tələbləri qarşısında geri çəkilib. Müzakirələr Xocalıda yerləşən sülhməramlılarının qərarhagında davam etdirilib. Dünən isə ilkin müzakirələrin davamı olaraq danışıqların ikinci raundu keçirilib.***



**Ədalət Verdiyev, hərbi ekspert:**



- Rus sülhməramsızlarının nəzarət-buraxılış məntəqəsində Azərbaycan jurnalistlərini buraxmayan və "idite obratno" deyən hərbi geyimli şəxs böyük ehtimalla ermənidir. Onun üzünü gizlətməsi üçün maskadan istifadə etməsi də bu ehtimalı gücləndirir. Həmin hərbçinin geyim forması və fərqlənmə nişanları da rus kontingentin geyim forması və fərqlənmə nişanlarından fərqlənir. Hesab edirəm ki, bu və digər təxribatçı fəaliyyətlərin hesabı erməniməramlı general Volkovdan mütləq və ən qısa zamanda soruşulmalıdır.

"Azərbaycan nümayəndələri ekoloji monitorinq aparmaqla bağlı Xocalıda danışıqlar aparıb, görüş konstruktiv ruhda keçib".

Bu barədə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə məlumatında bildirilib. Qeyd edilib ki, 2022-ci il dekabrın 3-də keçirilmiş müzakirələrin davamı olaraq, dekabrın 7-də Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı Xocalıda Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə görüş keçirib:

"Görüş zamanı faydalı qazıntı yataqlarına, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarına yerində baxış, qanunsuz istismarın dayandırılması, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılması, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi və dəymiş zərərin nəticələrinin aradan qaldırılması məsələləri müzakirə edilib. Görüş konstruktiv ruhda keçmişdir. Aidiyyəti üzrə təmaslar davam etdiriləcək. İctimaiyyətə əlavə məlumat veriləcək".

Rəsmi Bakının bu təşəbbüsü əslində çoxdandır rus hərbçilərinin yarıtmaz fəaliyyəti ilə bağlı səsləndirilən bir çox iddiaları faktlarla sübuta yetirdi.

Azərbaycanın rus sülhməramlılarının yerləşdiyi ərazilərdə monitorinq üçün səfər etmək qərarına qəfil yaxalanan rus hərbi kontingenti öz davranışları və azərbaycanlılara sərgilədyi münasibətlə özlərinin əsl simalarını ortaya qoymuş oldular.

İlk öncə dekabrın 3-də azərbaycanlı jurnalistlərlə rus hərbçilərin dialoqunu yada salaq. Kamera qarşısında media təmsilçilərinin Separatçı rejimin polisi kimi təqdim olunan şəxslərlə bağlı sualları qarşısında aciz qalan, sonda bunun "siyasi məsələ" olduğunu irəli sürərək cavab verməkdən boyun qaçıran rus hərbçilər anladılar ki, bu torpaqların əsl sahibinin tam olaraq geri qayıtması artıq an məsələdir. Bu ərazilərdə isə yalnız Azərbaycan qanunları, Azərbaycan polisi, Azərbaycanın dövlət qurumları fəaliyyət göstərəcək. Son günlərdə yaşanan olaylarda ən çox diqqət çəkən məqam isə rus hərbçilərinin Azərbaycan mediasına qarşı hörmətsizliyi oldu.

İstər dekabrın 3-də, istərsə də dünən jurnalistlərin sülhməramlıların müvəqqəti nəzarəti altında olan ərazilərə girişinə maneələr yaradılması media azadlığı ilə bağlı beynəlxalq qanunların kobud şəkildə pozulmasıdır. Beynəlxalq qanunlara görə, sülhməramlıların medianın fəvaliyyətini əngəlləmək kimi bir səlahiyyəti və ya statusu yoxdjur. Əksinə, onlar juprnalistlərin təhlükəsizliyini təmin etməklə vəzifəlidirlər. Bu əslində beynəlxalq münaqişə ocaqlarındakı sülhməramlıların əməl etməli olduqları prinsiplərdir. Burada isə söhbət azərbaycanlı jurnalistin öz dövlətinin ərazisində sərbəst fəvliyyətinə maneə yaratmaq cəhdindən gedir.

Əslində, kadrlara fikir verdikdə Azərbaycan mediasına maneə yaradılması cəhdinin hansı səbəblərdən qaynaqlandığı açıq aşkar görnür.

Məsələn, rus hərbçilərlə azərbaycanlı jurnalistlərin dialoqu zamanı Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdiyi Azərbaycan ərazilərində xarici nömrə nişanlı avtomobillər sərbəst şəkildə hərəkət etdiyi aşkarlanıb. İTV çəkiliş qrupunun Laçın yolunda apardığı reportaj zamanı Gürcüstan nömrə nişanlı avtomobilin keçdiyi görünür.

**Mətin Məmmədli, politoloq:**



- Regionda cərəyan edən geosiyasi proseslər fonunda yaxın vaxtlarda bir çox məsələlərin həllinə nail olacağıq. Son günlər Azərbaycan-Rusiya arasında müəyyən gərginlik müşahidə olunur. Bu məsələdə məsuliyyət birbaşa sülhməramlıların üzərindədir. Demək olar ki, Azərbaycan Müdafiə Nazirliyi hər gün Rusiya Müdafiə Nazirliyinin saytında Qarabağda yerləşən yer adlarının erməni dilində göstərilməsinə etiraz edirdi. Nəhayət, Rusiya həmin saytda Azərbaycan toponimlərinin yazılışında dəyişiklik etdi. Bu yaxınlarda isə Rusiya sülhməramlılarının komandanı Volkov bildirdi ki, Laçın yolunda Ermənistanla sərhəddə kiçik postlar qurulacaq. Görünür ki, Rusiya sülhməramlıları məsələnin nə qədər ciddi olduğunu dərk edərək, öz hərəkətlərində müəyyən düzəlişlər edib. Qarabağda baş verənlərə görə məhz Rusiya sülhməramlıları məsuliyyət daşıyır. Biz gözləyirik ki, Rusiya sülhməramlıları nəhayət öz işləri ilə məşğul olsunlar.

Qeyd edək ki, daha əvvəl də İrana məxsus maşınların dəhlizdə rahat hərəkət etməsi ilə bağlı görüntülərin şahidi olmuşuq. Son məlumatlara görə, Xankəndiyə daha 13 iranlı qanunsuz daxil olub. Bu barədə "Azad İran" Teleqram kanalı məlumat yayıb. Bundan öncə 14 iranlının qanunsuz olaraq Xankəndiyə gəldiyi açıqlanmışdı. Beləliklə, noyabrın 24-dən 30-dək rusiyalı sülhməramlıların postundan Qarabağ ərazisinə iki qrup halında 27 nəfər İran vətəndaşı daxil olub. Göründüyü kimi, əvvəllər bu kimi halları qətiyyətlə təkzib etsələr də rus sülhməramlı kontingentinin rəhbərliyi fakt qarşısında qalıb.

Həm qanunsuz səfərlərə, həm qeyri-leqal yolla Azərbaycanın təbii sərvətlərinin mənimsənilib Ermənistana qanunsuz olaraq daşınmasına, həm də Azərbaycan ərazilərinə mina və digər hərbi sürsatların gizli yolla Laçın yolu ilə keçirilməsinə şərait yaradılmasına dair rəsmi Bakının ortaya qoyduğu faktlar Moskvanı aciz duruma salıb.

Səh. 2

GÜNÜN FOTOSU...



**Zelenski Ukrayna ordusunu Donetskdən təbrik etdi**

GÜNÜN SİTATI

*"Cənab Heydər Əliyev 1969-cu ildə rəhbərliyə gələndən sonra bütün sahələrlə maraqlandı, hər yerlə, bizim neftçilərlə də..."*



**Xoşbəxt Yusifzadə,**
akademik

KARİKATURA




**Arazın o tayındakı əmmamələlər**

## "İran Allahlıq iddiasındadır"

**Elşad Miri,**
dinşünas alim

Bir adama məcbur namaz qıldırdığın zaman, başını örtürdüyün zaman, məcbur oruc tutdurduğun zaman bu, Allaha ziddir.

Səh. 5

STATİSTİKA



■ **Bu günə qədər İpoteka və Kredit Zəmanət Fondu (İKZF) 41 898 borcalana 2 milyard 386,16 milyon manat kredit verib.**

Bu barədə İKZF məlumat yayıb. Rəsmi məlumata görə, indiyə qədər 331,176 milyon manat məbləğində biznes kreditlərinə zəmanət verilib, 2 900 mənzil isə kirayəyə vermək yolu ilə realizə edilib.



Səh. 5

## Rusiya nefti üçün son qiymət...

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2014-cü il yanvarın 1-dən 2023-cü il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin (ailələrin) 2021–2025-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla tədbirlər planını təsdiq edib həyata keçirəcək.

Belə ki, Sərəncamla "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamının 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilir:

- 1.1-ci bənddə "2020-ci" sözləri "2023-cü" sözləri ilə əvəz edilir;
- 1.2-ci bənddə "2020-ci ildə" sözləri "2020–2022-ci illərdə" sözləri ilə əvəz edilir.
- Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

***



**Prezident İlham Əliyev dekabrın 7-də Rusiyanın Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Bu barədə Prezidentin Mətbuat xidməti məlumat yayıb.**

Dövlət başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının ayrı-ayrı vilayətləri, o cümlədən Həştərxan vilayəti ilə səmərəli əməkdaşlığın həyata keçirildiyini bildirib və bu əməkdaşlığın Azərbaycan-Rusiya əlaqələrinin inkişafında rolunu qeyd edib. Rusiya ilə ikitərəfli münasibətlərin 2022-ci ildə də uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev bu baxımdan qarşılıqlı səfərlərin və Bakıda keçirilən regionlararası forumun əhəmiyyətini vurğulayıb.

Azərbaycanla Həştərxan vilayəti arasında ənənəvi qonşuluq əlaqələrinin mövcudluğuna toxunan dövlətimizin başçısı əməkdaşlıqla bağlı planların həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Xoş sözlərə görə minnətdarlığını bildirən İqor Babuşkin Rusiya Federasiyasının Həştərxan vilayətinin ölkəmizlə əməkdaşlığının uğurla davam etdiyini deyərək, bu ilin 9 ayının nəticələrinə əsasən, yükdaşımaların 4 dəfə artmasını əlaqələrin yaxşı göstəricisi kimi dəyərləndirdi, eyni zamanda, ixrac və idxal məhsullarının çeşidinin genişləndiyini diqqətə çatdırdı. Qonaq Bakıda keçirilən regionlararası forumun əhəmiyyətini vurğulayaraq Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın Azərbaycan-Rusiya əlaqələrinin genişlənməsi işinə töhfə verdiyini məmnunluqla qeyd etdi. Görüşdə Heydər Əliyev Fondunun Həştərxan vilayətində həyata keçirdiyi layihələrin əhəmiyyətinə toxunuldu, gələn il Ulu Öndərin anadan olmasının 100 illiyi ilə bağlı Həştərxanda bir sıra tədbirlərin keçiriləcəyi bildirildi. Söhbət zamanı humanitar sahədə əməkdaşlıq məsələləri də müzakirə olunub. Sonda xatirə şəkli çəkdirilib.

# Kremldən Əliyev və Paşinyanın görüşü ilə bağlı açıqlama



**Rusiya Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş keçirilməsi üçün yardım göstərməyə hazırdır.**

Bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. Xatırladaq ki, oktyabrın 31-də Azərbaycan Prezidenti İlham Əliyev Soçidə Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb.

# "Akademik Xoşbəxt Yusifzadə" tankeri istismara verilib

***Dekabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində iştirak edib. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev Prezident İlham Əliyevə raport verərək dedi: Xoş gəlmisiniz, cənab Prezident, yeni inşa edilmiş "Akademik Xoşbəxt Yusifzadə" gəmisi istismara hazırdır.***



## Gündəm

Dövlətimizin başçısına məlumat verildi ki, uzunluğu 141, eni 16,9 metr olan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin yükgötürmə qabiliyyəti 7800 tondur. Gəminin daimi heyəti 15 nəfərdən ibarətdir. Tankerin inşasına 2019-cu ilin avqustunda başlanılıb.

Gəmidə "Wartsila Finland Oy" (Finlandiya), "Wartsila Svanehoy A/S" (Norveç), "Carrier" (ABŞ), "Gürdesan Gemi Mak.San" və "Tic. A.Ş." (Türkiyə), "Tranzas" (Norveç), "Alfa-Laval" (İsveç) kimi tanınmış istehsalçıların avadanlıqları quraşdırılıb.

Yeni tanker Bakı gəmiqayırma zavodunda inşa olunan 4 tankerdən üçüncüsüdür. Bundan əvvəl istismara verilən "Laçın" (2019-cu il, dekabr) və "Kəlbəcər" (2021-ci il, sentyabr) neft tankerlərindən fərqli olaraq, "Akademik Xoşbəxt Yusifzadə" ilə həm neft, həm də kimyəvi məhsulların daşınması mümkündür. Gəminin suya oturumu ASCO-nun digər tankerləri ilə müqayisədə, maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Rusiyanın su kanalları ilə Xəzərdən kənara yük daşımağa imkan yaradır.

Diqqətə çatdırılıb ki, hazırda ASCO-nun istifadəsində 21 tanker var. Gəmilərin yaş həddini nəzərə alaraq, tanker donanmasının yaxın gələcəkdə yenilənməsi planlaşdırılır.

Qeyd edək ki, "Akademik Xoşbəxt Yusifzadə" tankerinin inşası, eyni zamanda, son illərdə yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin tərkib hissəsidir. ASCO-nun Strateji İnkişaf Planına uyğun olaraq son illərdə 25 gəmi istismara verilib. Bu da ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımaların yaranan tələbatın ödənilməsində və dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm rol oynayır.

Ümumilikdə ASCO Bakı gəmiqayırma zavoduna indiyədək 10 gəminin tikintisi ilə bağlı sifariş verib. Onların artıq 9-nun, o cümlədən bir yedək, üç sərnişin, iki Ro-Pax tipli gəmi-bərənin və üç tankerin inşası başa çatdırılaraq istismara verilib. Gəmilərin tikintisi əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin mənfəəti hesabına maliyyələşir. Bu da yerli gəmi tikintisi sənayesinin inkişafına töhfə verir.

Hazırda Qara dəniz və Aralıq dənizi hövzələrində Azərbaycan bayrağı altında 6 quru yük gəmisi və 3 tanker olmaqla, 9 gəmi istismar edilir. Bu gəmilərin heyət üzvləri tamamilə yerli mütəxəssislərdən ibarətdir.

**Dövlət başçısı bildirib:** "Dedim, qərar qəbul edirəm ki, növbəti gəmi Xoşbəxt müəllimin adına olacaqdır və hamı üçün sürpriz olmuşdu, o cümlədən Xoşbəxt müəllim üçün. O bilmirdi mənim hədiyyəm nə olacaq, hədiyyəm də, bax, bu oldu.

**Xoşbəxt Yusifzadə:** Görürsünüz, mən həyatımı neçə illərdir dənizdə qoymuşam. Mən Sizə çox təşəkkürümü bildirirəm. Hörmətli Prezident, doğrudan da mənə böyük qiymət verdiniz, doğrudan da mənə çox böyük bir hədiyyə etdiniz. Bu, Sizin təkcə mənə yox, bütün neftçilərə olan hörmətinizdir. Ümumiyyətlə, Siz o vaxtlar elə bizimlə on il bir yerdə işləmisiniz. Prezident olandan sonra da elə gözünüz bizim üstümüzdədir. Bizim bütün nailiyyətlərimiz Sizinlə bağlıdır. Siz hamısı ilə fərəhlənirsiniz, bizə də diqqət yetirirsiniz.

Mən Sizə onu da deyim ki, cənab Heydər Əliyev 1969-cu ildə rəhbərliyə gələndən sonra bütün sahələrlə maraqlandı, hər yerlə, bizim neftçilərlə də maraqlandı. O vaxt dənizin dərinliyi 40 metr olan bütün sahələrində yataqlar kəşf olunmuşdu. Amma gəmiçilikdə gəmilər yox idi, az bir müddətdə 400-dən artıq gəmi aldı, kran gəmiləri, yükdaşıyan gəmilər. Bunların hamısı indi adları dünyada məşhur olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının kəşf olunmasına imkan verdi. Doğrudan da cənab Heydər Əliyev sanki, neçə il öncə gələcəyi görürdü. Doğrudan da böyük işlər gördü.

Təşəkkür edirəm Sizə, çox böyük iş gördünüz. Bu gün mənim demək olar ki, ən xoşbəxt günlərimdən biridir. Hər şeyi gözləyərdim, amma dənizdə mənim adıma gəmi olsun, vallah, bunu heç yatıb yuxuda da görə bilməzdim.

**Prezident İlham Əliyev:** Bu, ədalətlidir.

**Xoşbəxt Yusifzadə:** Özü də ki, tanker. Məsələ ondadır ki, bilirsiniz, mən demək olar bütün gəmilərdə, tankerdə də olmuşam. Çünki hava bərk külək olanda başqa gəmi ilə qırağa çıxmaq mümkün deyildi. Biz tankerlərlə qırağa çıxırdıq. Hörmətli Prezident, əgər insanın bədənini neft sənayesinə bənzətsək, gəmiçilik onun ayaqlarıdır. Gəmiçilik olmadan biz dənizdə heç bir iş görə bilməzdik. Dənizdə nə yataqlar açmışıq, nə işlər görmüşük, nə edirik, bunlar hamısı gəmiçiliklə əlaqədardır. Çünki biz suda bunsuz heç bir iş görə bilməzdik. Özü də bu gəmiçiliyin o biri gəmiçilikdən - dəniz gəmiçiliyindən fərqi ondadır ki, o birilər birbaşa bir limandan başqa limana gedir, amma bu, açıq dənizə çıxır, platformalara yaxınlaşır.

Odur ki, sizin hamınıza, bütün bu kollektivə öz təşəkkürümü bildirirəm. Bu, böyük vəzifədir. Daha nə deyim?! Bir daha təkrar edirəm ki, bu, mənim ən xoşbəxt günlərimdən biridir. Mən Sizə necə minnətdarlıq edim, necə təşəkkürümü bildirim?!

**Prezident İlham Əliyev:** Sağ olun, Xoşbəxt müəllim.

**Xoşbəxt Yusifzadə:** Daha mənim əlimdən nə gələr, ancaq onu bilirəm ki, Sizin xətrinizi dünya qədər istəyirəm, ölənə qədər də nə cənab Heydər Əliyev, nə də Siz mənim heç vaxt yadımdan çıxmayacaqsınız. Çox sağ olun, minnətdaram.

> *Məhz Heydər Əliyevin təşəbbüsü nəticəsində Azərbaycanda Xəzər dənizində neft-qaz yataqlarının işlənməsinə yeni təkan verildi*

**Prezident İlham Əliyev:** Sağ ol, Xoşbəxt müəllim. Siz Heydər Əliyevin işlərini xatırlatdınız. 1970-ci illərdə doğrudan da Azərbaycan neft sənayesinin yeni dövrü başlamışdır və siz də o işlərin iştirakçısı kimi o günləri yaxşı xatırlayırsınız. Məhz Heydər Əliyevin təşəbbüsü nəticəsində Azərbaycanda Xəzər dənizində neft-qaz yataqlarının işlənməsinə yeni təkan verildi. O cümlədən yaxşı xatırlayırsınız ki, məhz Heydər Əliyevin təşəbbüsü ilə və deyə bilərəm ki, təkidi ilə Dərin özüllər zavodu inşa edilmişdir.

Hansı ki, o vaxt Həştərxanda planlaşdırılırdı. O, ondan xəbər tutdu, sovet hökumətinin yüksəkvəzifəli şəxslərinə müraciət etdi və sübut etdi ki, bu, Dərin özüllər zavodunun tikilməsi üçün ən məqbul yer Bakıdır, Azərbaycandır. Nə üçün? Çünki Xəzərin bütün neft-qaz sənayesinin mərkəzi bura idi və buna nail oldu.

İndi siz də yaxşı xatırlayırsınız ki, biz "Əsrin kontraktı" üzərində işləməyə başlayanda bu Dərin özüllər zavodunun bizdə olmasının nə qədər böyük əhəmiyyəti var idi. Çünki əgər bu zavod olmasaydı, bizim bütün kontraktlarımızın icrası bəlkə də 5-10 il gecikə bilərdi. Yəni, o vaxt bunu etdi və müstəqillik dövründə Heydər Əliyev neft strategiyasının icraçıları kimi biz sizinlə "Əsrin kontraktı" üzərində digər yoldaşlarla bərabər işləmişik və o günləri də həmişə xatırlayırıq. Bu gün inkişaf edən, güclənən Azərbaycanın təməli məhz o vaxt qoyuldu. Əgər o kontrakt imzalanmasaydı bizim gəlirlərimiz olmayacaqdı.

Gəlir olmayan yerdə hər hansı bir inkişafdan söhbət gedə bilməz. Bu gün biz Ulu Öndərin siyasətinə sadiq qalaraq yeni nəqliyyat infrastrukturu obyektlərini yaradırıq. Bax, bu tankerin yaradılmasının təməli 9 il bundan əvvəl gəmiqayırma zavodunun istismara verilməsi ilə qoyulmuşdur. O qərarı da mən qəbul etmişdim, bunu biz həll etdik. O vaxt bəziləri hesab edirdi ki, buna ehtiyac yoxdur. Onsuz da biz başqa ölkələrdən gəmilər, tankerlər alırıq. Amma mən bilirdim ki, bunun böyük əhəmiyyəti olacaq. İndi heç kimdən asılı deyilik, həm peşəkar komanda var, həm təcrübə var. Deməli, burada bütün inşaat işləri yerli mütəxəssislər tərəfindən aparılır. Biz hər il bir neçə tanker, quru yük gəmisi, "Ro-Ro" gəmisi, bərə inşa edə bilirik. Bu gəminin sizin adınıza olması hesab edirəm ki, çox ədalətlidir.

Düzdür, bu, nadir bir haldır, bəlkə də deyə bilərəm ki, yeganə bir haldır, insanın sağlığında gəmiyə onun adı verilir. Amma bu ədalətlidir. Bilirsiniz ki, mənim sizə çox böyük hörmətim var - həm mütəxəssis kimi, əfsanəvi neftçi kimi, gözəl insan kimi. Bax, bu gün sizin bizimlə bərabər burada olmağınız bir çoxlarını ruhlandırır ki, elə bu yaşda da adam gümrahdır. Sağlamlığı da yerindədir və öz nikbinliyi ilə hamımızı daha gözəl işlər görməyə ruhlandırır. Ona görə təbrik edirəm, Xoşbəxt müəllim.



**Xoşbəxt Yusifzadə:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Mən yubiley tədbirində demişdim ki, bu tankerin açılışını bərabər edəcəyik. Bax, bu gün gəldi.

**Xoşbəxt Yusifzadə:** Sizin o qədər işiniz var. Bununla bərabər, gəlib burada tankerin istismara verilməsində iştirak etməyiniz doğrudan da bizim hamımız üçün, burada olanlar üçün böyük fəxrdir. Biz hamımız Sizə minnətdarlığımızı bildiririk. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Xoşbəxt Yusifzadə:** Mən Prezidentlə bir yerdə lent kəsirəm, bunu heç yaddan çıxartmaq olar?

**Prezident İlham Əliyev:** Təbrik edirik.

Sonra Prezident İlham Əliyev və akademik Xoşbəxt Yusifzadə tankerin istismara verilməsini bildirən lenti kəsdilər. Sonda xatirə şəkilləri çəkdirildi.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

əvvəli 1-ci səhifədə

# Rus hərbçilərinin özbaşınalığı

Bu səbəbdəndir ki, elə ilk görüşün ardından Azərbaycan ərazisində müvəqqəti yerləşən Rusiya sülhməramlılarının komandanı Andrey Volkov Laçın dəhlizinin girişinə mini-gömrük postunun quraşdırılacağına dair açıqlama verdi. O, yuxarıda sadalanan "çatışmazlıqları" isə rus hərbçilərinin yola nəzarət imkanlarının məhdud olması ilə "əsaslandırdı".

Qeyd edək ki, sülhməramlıların komandanı mini-gömrük postunun qurulması ilə bağlı Azərbaycanla razılaşma olduğunu bəyan edib. Hərçənd, o, gömrük postunun Azərbaycan tərəfindən qurulacağını, yaxud azərbaycanlıların postda dayanacağını bildirmir. Azərbaycanın Laçın keçidinə post qurması planı var, lakin qurulacaq gömrük postunda bizim dayanacağımız ehtimalı da, hələ ki, zəif görünür. Burada ən vacib məqam qanunsuz daşımaların qarşısının alınması, gömrük postunun qurulmasından sonra da belə halların baş verəcəyi təqdirdə, Azərbaycanın özünün post qurması zərurətinin artmasıdır.

Məlumatlardan aydın olur ki, gömrük postunda rentgen skanerlər quraşdırılacaq və yoldan keçən avtomobillər bu skanerlərdən keçəcək.

Xankəndində belə şaiyələr yayılıb ki, skanerlərin qurulması, yeni postun yaradılması məsələsi hələ müzakirə mərhələsindədir, hərçənd, Volkov artıq razılaşmanın olduğunu açıqlayıb.

"Hraparak" qəzeti isə mənbələrinə istinadən yazır ki, razılaşma var və yaxın dövrdə Laçın dəhlizinin girişinə mini-post - rentgen skanerlər quraşdırılacaq.

Qəzetin əldə etdiyi məlumata görə, Azərbaycan gömrük postunu - rentgen skanerlərdən keçən avtomobilləri onlayn rejimdə izləyəcək, avtomobildəki sərnişinlərə və baqajların içinə nəzarət edə biləcək. "Bu, əslində ruslarla birlikdə dəhlizə nəzarət deməkdir", - nəşr qeyd edir.

Bu fakt özlüyündə separatçıları da təşvişə salıb. Hazırda Xankəndidə qanunsuz mədən fəaliyyətinin sonlanacağı, silah daşınmasının qarşısının alınacağı, Laçın yoluna nəzarətin tam olaraq rəsmi Bakının səlahiyyətinə keçəcəyi ilə bağlı narahatlıq hökm sürməkdədir.

Adamda belə bir hiss yaranır ki, 44 günlük müharibədəki məğlubiyyətlə ermənilər həm özlərinə hörməti, həm də özünü qorumaq instinktini itiriblər. Bizə nə olub? Marionetə çevrilmişik. Bunu erməni siyasi analitiki Tevos Arşakyan deyib. "Azərbaycan ekoloqlarının Rusiya sülhməramlılarının köməyi ilə Xankəndiyə girə bilməsi çox şeydən xəbər verir. Bu onu deməyə əsas verir ki, yaxın gələcəkdə bütün bu ərazilər Bakının tam nəzarətinə keçəcək", - Arşakyan bildirib.

Əslində yaşanan proseslər də məhz bu istiqamətə doğru gedir. Xankəndi və rus hərbçilərinin fəaliyyəti ilə bağlı həlqə daralır. Qanunsuz fəaliyyətləri önlənməsi üçün isə nəfəslik birdəfəlik bağlanmaq üzrədir. Geosiyasi proseslər ölkəmizin yaxın vaxtda daha da güclənəcəyini ifadə edir və biz bir çox məsələlərin həllinə nail ola biləcəyik.

**Azad Əliyev**

# “Üçüncü Qarabağ müharibəsi realdır”

**Qarabağda Azərbaycan adlarının sülhməramlılar tərəfindən erməni dilində qeyd olunması ilə bağlı yaranan gərginlik, ermənilərin yeraltı mədənlərimizi istismar etməsi, monitorinqin aparılması ilə bağlı Azərbaycanın etirazları, Laçın yolundan Qarabağa 14 İran terrorçusunun keçirilməsi ilə davam edir. Rusiya sülhməramlıları qeyri-qanuni erməni silahlılarını ərazilərimizdən çıxarmaq əvəzinə, cinayətkarları qoruyur, silahlandırır, vəziyyəti gərgin olaraq saxlayır. Bu istiqamətdə “Həftə içi”nə müsahibə verən Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn müəyyən məsələlərə diqqət çəkib.**



**Pənah Hüseyn,**
Azərbaycan Xalq Partiyasının sədri

*Azərbaycan QHT nümayəndlərinin Xankəndinə gedib erməni vətəndaşları ilə görüşünün əleyhinəyəm*

*Sərhədin Rusiya sülhməramlılarının nəzarəti altında olması ilə bağlı bizim müqaviləmiz yoxdur*

*Sülhməramlıların bizim ərazimizdə mövcudluğu Rusiya üçün bəhanədir və bunu axırıncı ana qədər əlindən verməyəcək*

## Müsahib

***- Xankəndidə olan ermənilərin Azərbaycan Dövlətinə inteqrasiyasına nail olmaq üçün QHT nümayəndələri sülhməramlıların iştirakı ilə həmin ərazilərə səfərlər etməlidir. Necə hesab edirsiniz, QHT-lərin bu ərazilərə gedib danışıqlarda iştirak etməsi hansı effekti verə bilər?***

- Azərbaycan QHT nümayəndlərinin Xankəndinə gedib erməni vətəndaşları ilə görüşünün əleyhinəyəm. Hesab edirəm, indiki reallığın əsas prioritet istiqaməti bu deyil.

Azərbaycan müharibədəki qələbədən sonra Ermənistanla sülhün bağlanması, münasibətlərin normallaşması, istərsə də Qarabağda yaşayan erməni əhalisinin reinteqrasiyası və bu prosesdə sülhyaratma, nizamlanma işi getməlidir. Düşüncəmə görə, real durumda prioritet hərbi-siyasi yol olaraq qalır. Qarabağda hələ 10 mindən yuxarı “Arsax” terrorçu qruplaşması var. Belə bir vəziyyətdə xalq diplomatiyası, yaxud siyasi partiyaların bu prosesə cəlb olunması həlledici əhəmiyyətə malik ola bilməz. Hələ indiki vəziyyətdə bu məsələnin həlli dövlətlərarası münasibətdən və silahlı qüvvələrdən, təhlükəsizlik orqanlarından daha çox asılıdır.

Təsadüfi deyil ki, II Qarabağ müharibəsindən sonra yaranan gərginlik fonunda III müharibə də istisna olunmur. Qarabağda olan separatçı qüvvələrin nəinki aradan qaldırılması, “erməni silahlı qüvvələr” adı altında onların oradakı Rusiya sülhməramlılarının mühafizəsi və himayəsi altında daha da möhkəmlənməsi istiqamətində addımlar müşahidə olunur. Bu, Azərbaycan cəmiyyətində çox ciddi narahatlıq doğurur və regional təhlükəsziliyi təhdid edən hadisə kimi meydana çıxır.

Bu yaxınlarda Qarabağa silah daşınması haqqında məlumatlar, İran İslam Respublikasından Qarabağa terror məqsədilə desant qrupunun göndərilməsi 2020-ci il 9-10 noyabr sazişinin ziddinə olaraq, “Laçın dəhlizi” adlanan keçiddən erməni əhalinin təkcə Ermənistanla humanitar əlaqəsini yox, faktiki olaraq yeni müharibə hazırlığı, qeyri-humanitar addımlar üçün istifadə olunduğu üzə çıxır. Digər tərəfdən, Ermənistanın özünün siyasəti faktiki olaraq vaxt qazanmaq, bu vəziyyəti uzatmaq və imkan, şərait yaranarsa, Azərbaycana qarşı yeni təcavüzün başladılması olduğunu gizlətmir. O baxımdan əsas xətt hərbi-siyasi yol olaraq qalır. Elə etmək lazımdır ki, xalq diplomatiyası ümumi sülhün bərqərar olmasına, iki dövlət arasında münasibətlərin normallaşmasına, daha açıq desək, Ermənistanın Azərbaycana təcavüzünün aradan qaldırılmasının əleyhinə işləməsin.

Digər tərəfdən, bu proses regional və qlobal prosesdən asılı vəziyyətə düşüb və açığı, onun təsiri altındadır. Bu məsələnin həlli, proseslərin gedişi Rusiya-Ukrayna müharibəsinin təsiri altındadır. Həmin savaşın Cənubi Qafqaza, indi isə Yaxın və Orta Şərqə keçməsi haqqında məlumatlar var. Bu münasibətlər iki dövlət, hətta Cənubi Qafqaz dövlətləri arasında məhdudlaşmır. Azərbaycan-Türkiyə hərbçilərinin cənubumuzdakı hərbi təlimləri, Türkiyə müdafiə nazirinin “Şuşa Bəyannaməsi bizim bir millət - bir dövlət olduğumuzu və bunun bir mesaj olduğunü göstərir” deməsi sözgəlişi deyil. İran tərəfindən Azərbaycana qarşı təcavüzkar münasibət gizlədilmir. Bu fonda dediyiniz xalq diplomatiyasının təsir imkanları xeyli dərəcədə zəifdir. Azərbaycan Silahlı Qüvvələri məsələlərdə həlledici rol oynamada davam edir. Özümüzü aldatmayaq, hələlik aralıq vəziyyətdəyik və bütün istiqamətlərdə üsullardan istifadə etməliyik.

***- Dekabrın 3-də Laçın-Xankəndi yolu ilə hərəkət edən erməni maşınları qısa müddətdə tıxacda qaldı. Səbəb sülhməramlıların Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələrini həmin ərazidə mədənlərin qeyri-qanuni istismarı ilə əlaqədar monitorinq keçirmək üçün ərazilərə buraxmaması idi. Qarabağda sülhməramlıların gözü qarşısında torpaqlarımız istismar edilir və bizi ərazilərimizə qoymaq istəmirlər, çıxış yolu harada axtarılmalıdır?***

- Qarabağda Azərbaycanın təbii sərvətləri 30 ildir talanır. Orada xarici şirkətər qeyri-qanuni fəaliyyət göstərirlər. Bu gün Azərbaycan tərəfinin monitorinq tələbi və yolda yaranan gərginlik ermənilərdə yüksək isterikaya səbəb oldu. Doğrusu, bu, Ermənistan cəmiyyətinin kollektiv şəkildə şizofreniyaya tutulmasını bir daha göstərdi. Ermənilər hay-küy salıb “genosid”, guya terorçu dəstələrin yolu keçməsindən danışırdılar. Ermənilər onları xaricdə təlim keçmiş xüsusi təyinatlılar, diversant dəstələr kimi təqdim edib hay-küy saldılar. Təbii ki, bu, xəstə erməni xislətidir. Bizim məlum nazirlikdə işləyən adamların adı da məlumdur, vəzifələri də. Buna baxmayaraq, bunu dövlət orqanlarımız tərəfindən həyata keçirilən uğurlu əməliyyat hesab edirəm. Şübhəsiz bu, davamlı olmalıdır.

Məlumata görə, həmin monitorinqin aparılmasına razılıq verilib, sonra yeni rezonanslı hadisə ortaya çıxdı ki, sülhməramlılar Laçın yolu sərhədində gömrük postu qoyacaq. Sonra bu təkzib olundu ki, sadəcə, Rusiya sülhməramlılarının özlərinin nəzarətində olacaq giriş-çıxan maşınları yoxlamaq üçün skayner texnikası olacaq.

Laçında 5 kilometrlik ərazinin Ermənistan - Azərbaycan sərhədi olan hissəsində mütləq bizim sərhədçilərimiz gömrük xidməti qurulmalı, orada Azərbaycan Bayrağı dalğalanmalıdır. Sərhədin Rusiya sülhməramlılarının nəzarəti altında olması ilə bağlı bizim müqaviləmiz yoxdur. 10 noyabr sazişində yazılıb ki, 5 kilometrlik ərazidə Rusiya sühməramlıları təhlükəsizliyi təmin edir və Qarabağ ermənilərinin maneəsiz gedib-gəlməsinə nəzarət etməlidir. Bizim sərhədimiz heç bir halda öz nəzarətimizdən kənara qoyula bilməz.

***- Bu məsələdə Rusiya ilə hansısa bir aydınlaşmaya ehtiyac var?***

- Rusiya faktiki olaraq münaqişə ocağının qorunub-saxlanmasını təmin edir. Sülhməramlıların bizim ərazimizdə mövcudluğu Rusiya üçün bəhanədir və bunu axırıncı ana qədər əlindən verməyəcək. Hesab edirəm, riskli görünən hərbi əməliyyatlar davamlı olunmalıdır. Laçında təkcə bizim Ekologiya Nazirliyinin əməkdaşları görünməli deyil. Bilirsiniz ki, iki gün əvvəl Rusiya-Azərbaycan xarici işlər nazirlərinin Moskvada görüşü keçirildi. Məzmun tam açılmadı, amma Lavrovun belə bir açıqlaması oldu ki, sülh müqaviləsi istiqamətində danışıqlar davam edir, sülh müqaviləsi Avropa deklarasiyasına uyğun olaraq hazırlanmalıdır.

Bu gün sülh müqaviləsi istiqamətində Qərblə Rusiyanın müharibəsi gedir. Bu mənada sülh müqaviləsi ilə bağlı yeni görüşün keçirilməsi istisna edilmir. Bu görüş Moskvada olmalıdır. Hər halda Rusiyanın sülhməramlıların bu istiqamətdəki rolu ikibaşlı olaraq qalır. Konkret olaraq hazırda Rusiyanın əvvəlki kimi “Dağlıq Qarabağın statusu gələcək nəsillərə qalsın” yanaşmasının mümkün olmadığı ilə bağlı təəsüratı var. Amma Rusiyanın mövqeyi məlum olduğuna görə, bu məsələdə optimist olmağa da əsas yoxdur. Müxtəlif modellər düşünülür. Bunlardan biri “Qarabağın Azərbaycanın tərkibində tanınması və ərazinin uzun müddət təhlükəzilik təminatı üçün Rusiya sülhməramlılarına mandat verilməsi”. Ərazinin “Rusiyaya arendaya verilməsi haqqında” məlumatlar da var. Lakin bizim qarşımızda dayanan tələb odur ki, Azərbaycan məsələni 2025-ci ilə qədər həll etməlidir.

Ya ermənilər Azərbaycan vətəndaşı olaraq Xankəndidə yaşamalı, yaşamaq istəməyənlər çıxıb getməlidirlər. Azərbaycana, dövlət quruluşuna, insanlarımızın təhlükəsizliyinə təhdid yaradan terrorçu fəaliyyətdə olan qruplar da zərərsizləşdirilməlidir. Bunu da hərbi əməliyyatların başlanması, terror, xüsusi təyinatlı qüvvələrin əməliyyatları ilə həll etmək olar. Ona görə də üçüncü müharibənin olması mümkündür. Revanşist qüvvələrin Qarabağda fəaliyyətini davam etdirməsi onlar üçün daha ağır nəticələrə səbəb ola bilər.

***- “Müharibə başlaya bilər, hərbi əməliyyatlar” deyiləndə, dərhal qarşıya sülhməramlıları qoyurlar. “Rusiyanın Qarabağda özünün hərbi bazasını yaratmaq istəyi” görünürmü?***

- Bəzi əməliyyatları sülhməramlılarla atəş təmasına keçmədən də həyata keçirmək mümkündür. Biz bunu Qarabağda keçirilən bir sıra hərbi əməliyyatlarda müşahidə etdik. Digər tərəfdən, Rusiya Qarabağda hərbi baza yaratmaq istəyini açıq şəkildə ortaya qoyub. Rusiya sülhəramlılarının Qarabağa gəlməsi hər hansı hüquqla təsbit olunmayıb. Azərbaycan da ona mandat verib, qanuniləşdirməkdən imtina edib.

Rusiya orada əbədi qalmaq istəyir. Amma unutmayaq ki, region məsələsi təkcə Rusiyadan asılı deyil. Bütün məsələlər bu gün Ukraynada həll olunur. Azərbaycana qarşı müharibə açmaq həm də faktiki olaraq Türkiyə ilə müharibə deməkdir. Rusiya Ermənistana görə Azərbaycan və Türkiyə ilə müharibəyə gedərmi? Demək olmaz ki, bu, heç vaxt olmaz. Hər halda, ehtimal azdır. Mürəkkəb prosesdir. Bizim mənafelərimiz qeyri-müəyyənliyi, təhlükəsizliyə təhdid yaradan məqamların aradan qaldırılmasını zəruri edir.

***- Türkiyə-Azərbaycan birgə hərbi təlimləri fonunda aparılan müzakirələrdə Türkiyə hərbi bazalarının Azərbaycanda yerləşdirilməsi önə çəkilir. Hesab olunur ki, bununla da qardaş ölkə ilə hərbi əməkdaşlıq daha yüksək səviyyəyə qaldırıla bilər. Rusiya ilə Türkiyə bu məsələdə hansı razılığa gəlib?***

- Gəlin özümüzü aldatmayaq. Faktiki olaraq Türkiyə hərbisi Azərbaycandadır. Şuşa Bəyannaməsi də bunun hüququ əsasıdır. Əslində, buna razılaşmayan Rusiya olsa da, nəhayət qəbul edib. İran da buna qarşı tərpəndi.

Bu gün Türkiyə Xəzər dənizində hərbi baza yarada bilmir və bu, müəyyən hüquqi problemlərlə bağlıdır. Hesab edirəm ki, Azərbaycan Türkiyənin Aralıq dənizi sularında bir dəniz bazasına malik ola bilər. Aralıq hərbi dəniz bazasını arendaya götürə bilər.

Bu gün Azərbaycanın bütün yaşayış məntəqələrində, şəhid məzarlarında həm də Türkiyənin bayraqları var. Sadəcə, bu əlaqələr dərinləşdirilməlidir. Bütün sahələr üzrə Türkiyə ilə inteqrasiyaya gedilməlidir. Hər halda, 2023-cü ildə bu istiqamətdə müəyyən müsbət dəyişikliklər görəcəyik.

***- İranla münasibətlərdə 2023-cü ilə hansı dəyişiklik gözlənilir?***

- İran-Azərbaycan münasibətlərində müəyyən qırmızı xətlər artıq keçilib. Düzü, yenidən heç nə olmamış kimi, İran-Azərbaycan münasibətlərinin normallaşmaya qayıdışını tez zamanda gözləmirəm. İranın Azərbaycana, Türkiyəyə, Ermənistanla münasibətdə apardığı siyasətində dəyişikliklər olmasa, hətta daxilindəki vəziyyətlə bağlı islahatlara getməsə, məsələlərin əvvəlki məcraya qayıtması mümkün deyil.

İran-Azərbaycan münasibətləri heç nə olmamış kimi, üstüörtülü vəziyyətə qayıtmalı deyil. İranda azərbaycanlıların, təhsil, dil, təhlükəsizlik məsələləri önə çəkilir və bu istiqamətdə Azərbaycan və Türkiyə özünün mövqeyini ortaya qoydu. Mən İrana münasibətdə indiki kursun davam etdirilməsinin tərəfdarıyam. Azərbaycan elə bir mərhələdədir ki, özünün mövcudluğu üçün maraqları zonası müəyyən edilməlidir. Bu maraqlar İran coğrafiyasına keçir. Orada baş verən proseslər bizim üçün hansısa xarici ölkədə baş verən hadisə deyil. Bizim təhlükəsizliyimiz və digər məsələlərlə bağlıdır.

***- Azərbaycan daxilində cərəyan edən proseslər mövcud gərgnliyə nə dərəcədə adekvatdır?***

- Azərbaycanın daxilindəki bir sıra məsələlər qeyri-müəyyəndir. Belə düşünürlər ki, məsələn, Naxçıvan hadisələri fonunda, daxildə radikal dəyişikliklərdən, reformlardan çəkinmək lazımdır. Hesab edirəm ki, daxili-siyasi məsələlərdə dərinköklü dəyişikliklərdən çəkinmədən buna gedilməlidir. Bizə qarşı Ermənistanın təcavüzünün əsas səbəblərindən biri də Azərbaycanda daxildə olan problemlərdir. Həlli mümkün olan məsələləri həll etmək lazımdır ki, düşmənin əlinə bəhanə verilməsin. Biz bunun əksini görürük.

Deyək ki, bu gün “Siyasi partiyalar haqqında qanun layihəsi” yersiz bir dövrdə ortaya atılıb. Milli birlik istiqamətində müşahidə olunan son illərdəki meyilləri dərinləşdirmək əvəzinə, bu məsələ gərginlik yaradır. Digər tərəfdən, siyasi plüralizmin və çoxpartiyalılığın formalaşması istiqamətində ciddi addımların atılması dövründə siyasi partiyalar üçün əlavə məhdudiyyətlər yaradılması təhdidlər meydana gətirir.

Ciddi islahatlara gedilməlidir, “Siyasi partiyalar haqqında” qanun layihəsində gərginlik yaradan müddəalar həll edilməlidir, ölkədə konstitusiya dəyişikliklərinə gedilməlidir. Bu zaman Azərbaycan bir sıra qlobal, beynəlxaq proseslərin obyekti olmaqdan çıxacaq.

Düzdür, bu istiqamətdə xeyli irəliləyiş var. Lakin dünya bölüşdürülür. Belə bir vaxtda biz bölüşdürülən tərəf deyil, bölüşən tərəf ola bilərik. Yeni situasiyada, dünyanın yenidən şəkillənməsində iştirak edə bilərik. Azərbaycan böyümə mərhələsinə daxil olmalıdır. Bu böyümənin qarşısı alınmazdır. Hər birimizin ciddi fədakarlığına ehtiyac var. Panikaya düşməyə ehtiyac yoxdur. Gələcəkdə milli iradə ortaya qoymaqla buna nail olacağıq.

✍ *Tahirə Qafarlı*

# Xaricdə 51 min manatlıq təhsil

**Dövlət hesabına xaricdə təhsil alan tələbələrin illik xərcləri artırılıb. Qeyd edək ki, cari ildən maliyyələşdirilməsi nəzərdə tutulmuş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” üzrə xərclər növbəti ildən təqribən 2,1 dəfə artırılıb ki, bu da Dövlət Proqramı çərçivəsində növbəti il daha çox gəncin dövlət proqramının imkanlarından istifadə etməsinə şəraitin yaradılması ilə əlaqədardır. Bu barədə Hesablama Palatası Dövlət Neft Fondunun 2023-cü il büdcə layihəsinə rəyində əksini tapıb.**

Sənəddə qeyd edilib ki, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” xərc maddəsi üzrə 2023-cü ildə 36,7 mln. manat proqnoz müəyyən edilib ki, bu da 2022-ci il proqnozundan 18,8 mln. manat və ya 105,0 faiz, gözlənilən icra göstəricisindən isə 19,1 mln. manat və ya 108,5 faiz çoxdur.

Cari ildə bu xərc istiqaməti üzrə 17,9 mln. manat vəsait ayrılsa da, 9 aylıq icra göstəricilərinə əsasən vəsait istifadə edilməyib. Azərbaycan Respublikası Prezidentinin 28.02.2022-ci il tarixli 3163 saylı Sərəncamı ilə “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” təsdiq edilib ki, həmin Sərəncamın 7-ci bəndi ilə Neft Fondu birinci maliyyə mənbəyi kimi müəyyən edilib.



Sərəncamın 2.1.-ci bəndinə əsasən Proqramın əlaqələndirilməsini təmin edən Elm və Təhsil Nazirliyi tərəfindən 2023-cü ildə bu proqramın maliyyləşdirilməsi üçün ümumilikdə 21,6 mln. ABŞ dolları və yaxud 36,7 mln. manat vəsaitin ayrılması sifariş edilib. Hər bir tələbə üzrə orta illik xərc 51,0 min manat proqnozlaşdırılıb.

Məlumat üçün xatırladaq ki, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”na əsasən, Azərbaycan vətəndaşlarına dünyanın 30 ölkəsində yerləşən ən nüfuzlu universitetlərdə təhsil almaq imkanı yaradılır. Dövlət Proqramı ilə 15 prioritet ixtisas sahəsi (informasiya texnologiyaları, mühəndislik, statistika və verilənlərin təhlili, fundamental və tətbiqi elmlər, ictimai səhiyyə, təhsil, ətraf mühit, aviasiya və kosmos, dövlət idarəetməsi, nəqliyyat və logistika, energetika, iqtisadiyyat, maliyyə, arxitektura və dizayn, kənd təsərrüfatı) üzrə təhsil müəssisələrində bakalavriat və əsas etibarı ilə magistratura səviyyələrində Azərbaycan gənclərinin təhsili üçün imkan yaradılıb. Proqramın əhatə etdiyi dövrdə hər il üzrə 400 yer nəzərdə tutulub ki, həmin yerlərdən 320-si magistratura, 80-i isə bakalvr təhsili üçün ayrılıb.

Dünyadakı universitetlərin təhsil ödənişləri isə fərqlidir. Xarici ölkələrdən ən bahalı (38 min dollar) təhsil sistemi olan Amerika, ən ucuzu (4500 dollar) isə Qazaxıstandır. İllik təhsil haqqı, yaşayış xərcləri daxil olmaqla ali təhsilin illik 38 min dollar etdiyi Amerikadan sonra bu sıralamanı 34 min dollar ilə Kanada, 27 min dollar ilə İsveçrə və 25 500 dollar ilə Avstraliya davam etdirir.

Araşdırmalara görə, Amerikada dövlət hesabına olan universitetlərin illik təhsil ödənişi 23 min dollardan, bir tələbənin burada yaşayış xərcləri isə 15 min dollardan başlayır. Kanadada universitetdə təhsil almaq üçün ən az 20 min dollar, yaşayış üçün isə təxminən 14 min dollar xərclənir. İsveçrədə universitet ödənişləri üçün 7 min dollar, yaşayış 20 min dollar lazım olur. Avstraliyada ali təhsil almaq üçün isə təhsil haqqı 12 min dollar, orada yaşamaq isə 13 500 təşkil edir.

Norveçdə illik universitet ödənişi 200 dollardan başlayır. Amma bu ölkədə yaşam xərcləri bahadır. Aparılan araşdırmalara görə, sadəcə təhsili əsas götürsək ən bahalı ölkə Amerika, ən ucuz isə Norveç oldu. İllik təhsil ödənişi az olan Norveçdən sonra bir sıra Avropa ölkələri bu sıralamada yer alır. Təhsil haqqı Fransada 250 dollar, Almaniyada 550 dollar,İtaliyada isə 800 dollar olaraq hesablanıb. Yaşayış xərclərini vacib götürdükdə isə 20 min dollarla İsveçrə, 15 min dollarla Amerika, İngiltərə və Danimarka ən bahalı ölkələrdir. Ən ucuz ölkələr isə 4 min dollarla Qazaxıstan və Qırğızıstan, 5 min dollarla Gürcüstan, Ukrayna, Rusiya, Misirdir.

Qeyd edək ki, Asiya ölkələrindən Hindistanda universitet təhsilinin illik təhsil haqqı 16500 dollar, Yaponiyada 13500 dollar, Çində 12500 dollar, Tayvanda 10500 dollardan başlayır. Asiya ölkələrində yaşam xərcləri isə 15-20 min dollar civarındadır.

**■ Mövzu ilə bağlı qəzetimizə danışan təhsil üzrə ekspert Elşən Qafarov deyib ki, yeni dövlət Proqramında bir tələbə üçün nəzərdə tutulan illik vəsaiti yetərli saymaq olar:** “2022-2026-cı illəri əhatə edən proqram tam təqaüd verir və təhsil, viza və təhsil aldığı ölkədə qeydiyyat, aylıq yaşayış, tibbi sığorta xərcləri, beynəlxalq nəqliyyat, bank və plastik kart xərclərini qarşılayır. Hər bir tələbə üzrə orta illik xərcin 51 min manat nəzərdə tutulması yetərlidir. Bu vəsait tələbələrin bütün xərclərini qarşılayacaq.

*Həmin vəsaitlə dünyanın istənilən nüfuzlu ali məktəbində birillik təhsil almaq mümkündür*

Yəni, həmin vəsaitlə dünyanın istənilən nüfuzlu ali məktəbində bir illik təhsil almaq mümkündür. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”da hər tələbə üçün illik 45 min manat nəzərdə tutulmuşdu. Təbii ki, xərclərin artırılması barədə qərar müvafiq təhlillər aparılandan sonra verilir. Çünki hər ölkədə yaşam və təhsil xərci eyni deyil. Qeyd olunan rəqəm orta rəqəmdir. Bu vəsait ölkədən və şəhərdən asılı olaraq hər il dəyişəcək”.

✍ *Sevinc*

# Sahibkarlıq fəaliyyəti ilə bağlı yeni qanun

## Layihə

***Bu gün Azərbaycan dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinad etməklə özəl sektorun qeyri-neft iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsini hədəfləyən siyasət həyata keçirir. Belə ki, ölkəmizdə sahibkarlığın inkişafı dövlət başçısının iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyev hər zaman çıxışlarında sahibkarların yanında olduğunu dəfələrlə bəyan edib. Dövlət başçımızın belə qətiyyətli mövqeyinə uyğun olaraq ölkəmizdə özəl sektor həm siyasi, həm də maddi cəhətdən güclü şəkildə dəstəklənir.***



Son illərdə dövlət başçısının imzaladığı müvafiq sənədlər əsasında reallaşdırılan islahatların böyük qismi sosial-iqtisadi məzmunludur. Həyata keçirilən islahatlar sayəsində ölkəmizdə şəffaflıq artıb, ixracın və investisiyaların səmərəli təşviq mexanizmləri işə salınıb, vergitutma bazasının genişləndirilməsi yolu ilə vergi yükü azaldılıb, daxili istehsalın dəstəklənməsinə hədəflənən çoxsaylı tədbirlər görülüb ki, bütün bunlar da sahibkarların marağında olan məsələlərdir. Eyni zamanda, ötən müddət ərzində sahibkarlığın dəstəklənməsi istiqamətində həm dövlət, həm də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən lazımi addımlar atılıb. Sahibkarlara güzəştli kreditlər verilib, subsidiyalar ayrılıb, yeni iş yerlərinin açılmasına şərait yaradılıb. Aparılan islahatlar çərçivəsində ölkəmizdə kiçik və orta biznesin inkişafı təşviq edilir, sahibkarlıq subyektlərinin maliyyə mənbələrinə çıxış imkanları daha da genişləndirilir.

### Kiçik və orta sahibkarlığın inkişafında yeni mərhələ

**Qeyd edək ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafında yeni mərhələ başlayır. Belə ki, bu yaxınlarda Milli Məclis "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsini üçüncü oxunuşda təsdiqləyib.**

Qanun 5 fəsil, 15 maddədən ibarətdir. Qanunun hazırlanmasında beynəlxalq təcrübədən geniş istifadə olunub. Burada məqsəd əlverişli ekosistemin yaradılması, investisiya və innovasiyaların stimullaşdırılması, bazarlara çıxışa dəstək, ÜDM-də məşğulluğun qeyri-neft sektorunda KOB-ların payının daha da artırılmasından ibarətdir. Qanunun əsas istiqamətləri KOB-lara yerində xidmət, optimal vergi siyasəti, prosedurların daha da sadələşdirilməsi, bilik və bacarıqların artırılması, maliyyə resurslarından çıxışın asanlaşdırılmasıdır.

Layihəyə əsasən, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən səlahiyyətli qurumun yanında daimi fəaliyyət göstərən koordinasiya qrupunun yaradılması nəzərdə tutulub. Bununla yanaşı, səlahiyyətli qurum sahibkarlıq subyektləri haqqında müvafiq məlumatların daxil edildiyi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrini yaradır. Vahid reyestrin aparılması qaydası və həmin reyestrə daxil edilməli olan məlumatların siyahısı mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında əsasnamə ilə müəyyən edilir.

> Dövlət azad sahibkarlığı və liberal iqtisadiyyatı inkişaf etdirmək üçün mühüm addımlar atır



**Rüfət Quliyev,**
Milli Məclisin deputatı

Bununla bağlı parlamentdə keçirilən müzakirələrdə KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, Azərbaycanda KOB-ların mövcud potensialını nəzərə alaraq, onların imkanlarından istifadə olunması mühüm əhəmiyyət kəsb edir. O, təqdim edilən qanun layihəsinin vacib olduğunu, sahibkarların öz fəaliyyətlərində ondan lazımınca yararlanacağını söyləyib, bildirib ki, "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkə iqtisadiyyatında KOB-ların payının artırılması istiqamətində layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Bu çərçivədə mövcud dəstək mexanizmlərindən istifadə edən KOB-ların əhatə dairəsinin genişləndirilməsi, yeni daha səmərəli ünvanlı dəstək mexanizmlərinin tətbiqi ilə ölkədə mövcud biznes mühitinin inkişafı daha da sürətləndiriləcək.

O.Məmmədov təqdim olunan qanun layihəsinin hazırlanması prosesi barədə danışaraq, bu sahədə beynəlxalq təcrübənin öyrənildiyini, layihə ilə bağlı ictimai müzakirələrin keçirildiyini, ekspert rəylərinin nəzərə alındığını diqqətə çatdırıb. O, bildirib ki, müasir tələblərə cavab verən hüquqi tənzimləmənin özündə ehtiva edən sənəd ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfəsini verəcək. KOBİA İdarə Heyəti sədrinin I müavini Natiq Həsənov isə "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" yeni qanun layihəsinin detallarına toxunaraq bildirib ki, sənəddə istifadə olunan əsas anlayışlar, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində qanunvericilik, dövlət siyasətinin məqsədləri, prinsipləri, əsas istiqamətləri, sahibkarlıq subyektlərinə dəstək göstərilməsinin şərtləri, dəstəyin formaları, göstərilməsi qaydası və qiymətləndirilməsi, habelə dövlət maliyyə dəstəyi, məsləhət və informasiya dəstəyi, subyektlərin innovasiya, məhsul istehsalı və xidmət sahəsində dəstəklənməsi və digər məsələlərlə bağlı maddələr təsbit olunub. Layihəyə əsasən, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən səlahiyyətli qurumun yanında daimi fəaliyyət göstərən koordinasiya qrupunun yaradılması nəzərdə tutulub. Bununla yanaşı, səlahiyyətli qurum sahibkarlıq subyektləri haqqında müvafiq məlumatların daxil edildiyi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrini yaradır. Vahid reyestrin aparılması qaydası və həmin reyestrə daxil edilməli olan məlumatların siyahısı mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında əsasnamə ilə müəyyən edilir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

### "Hazırda iqtisadiyyatımızı uğurla dayanıqlı formada inkişaf etdiririk"

■ **Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev deyib ki, Azərbaycanda liberal iqtisadiyyat sahəsində kifayət qədər inkişaf müşahidə edilir: "Dövlət azad sahibkarlığı və liberal iqtisadiyyatı inkişaf etdirmək üçün mühüm addımlar atır.** Formalaşdırılan yeni strukturlar, təkmilləşdirilən qanunlar sayəsində proseslər daha uğurla davam etdirilir. "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" yeni qanun layihəsi də bu sahənin inkişafına daha da çox töhvələr verəcək. Ümumiyyətlə, bu gün həyata keçirilən iqtisadi siyasət ondan ibarətdir ki, biz Azərbaycanın iqtisadi arxitekturasını artıq dəyişmək istəyirik. Əsas məqsəd ondan ibarətdir ki, birincisi, mikro, kiçik və orta sahibkarlığın daha sürətlə inkişafının təmin olunması hədəflənib. Bunun üçün bilirsiniz ki, artıq vergi qanunvericiliyində də böyük dəyişikliklər edilib. Və münbit vergi sistemi yaradılmaqdadır. İkincisi, Ələtdə Azad İqtisadi Zona yaradılır. Bu olduqca böyük bir addımdır və həmin ərazidə tam dünya standartlarına uyğun olan iqtisadi zona yaradılacaq. Üçüncüsü, işğaldan azad olunmuş torpaqlarımızda müfəssəl iqtisadi zona yaradılır. Bu zonanın da gələcəkdə Azərbaycanın iqtisadi inkişafında böyük rolu olacaq. Dördüncüsü, innovativ biznes, iqtisadiyyatda innovativ texnologiyaların tətbiqi, xarici investorların ölkəmizə dəvəti, onlar üçün xüsusi şəraitin yaradılması da başlıca hədəflərdəndir və bu istiqamətdə kifayət qədər uğurlu addımlar atılıb. Bir məqamı vurğulayım ki, son bir ildə və hazırda qəbul olunan qanunlar dövlət-özəl tərəfdaşlığının daha da möhkəmləndirilməsinə təkan verib. Bu mənada düşünürəm ki, Azərbaycanda atılan addımların hamısı liberal iqtisadiyyatın inkişafını təmin edir.

Mən özüm iqtisadçı alim kimi Con Meynard Keyns nəzəriyyəsinin tərəfdarıyam. O nəzəriyyəyə böyük ümid bəsləyirəm. Və o nəzəriyyənin bəzi elementlərinin Azərbaycanda tətbiqinin tərəfdarıyam. Yəni, bir var dövlət müdaxilə edir, bir də var iqtisadiyyatı tənzimləyir. Mən tənzimləmə siyasətinin tərəfdarıyam. Bu formada siyasət yürüdüləndə milli maraqlar üstün olur, eyni zamanda sahibkarlığın inkişafında yeni mərhələlər, yeni mexanizmlər yaranır. Təbii ki, iqtisadiyyatın inkişafı tək iqtisadi sahənin inkişafı üçün deyil, bu sektorun inkişafı millətin, xalqın, cəmiyyətin, insanların rifahının yüksəlməsinə yönəlməlidir. Bu gün iqtisadi sahədə atılan addımların hamısı məhz bu məqsədlər üçündür. Mən bütün bu addımları istər alim, istər millət vəkili, istər sıravi vətəndaş kimi dəstəkləyirəm. Hazırda biz iqtisadiyyatımızı uğurla dayanıqlı formada inkişaf etdiririk. Biz bu gün xaricdən gələn istənilən problemin qarşısını almağa hazır olan bir dövlətik. Bizim üçün vacib olan da budur və biz də bu siyasəti də dəstəkləyirik".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri Mahmud Nəbiyev vəfat edib. M.Nəbiyev ötən gecə dünyasını dəyişib. Qeyd edək ki, o, 2000 - 2011-ci illərdə Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin sədri, 2011-ci ildən isə Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri vəzifələrində çalışıb.

■ 30 noyabr 2022-ci il tarixindən müalicəsi Gəncə Mərkəzi Klinikasında davam etdirilən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nuriyev Kənan Hafiz oğlu həkimlərin göstərdiyi səylərə baxmayaraq 6 dekabr 2022-ci il tarixində xəstəxanada vəfat edib. Bu barədə hafta.az-a Dövlət Sərhəd Xidmətindən məlumat verilib. Dövlət Sərhəd Xidmətinin rəhbərliyi hərbi qulluqçunun ailəsinə və yaxınlarına dərin hüznlə baş sağlığı verir.



■ Yunanıstan Azərbaycana yeni səfir təyin edib. Bu barədə məlumatı Azərbaycanın Yunanıstandakı səfiri Anar Hüseynov öz tviter hesabında açıqlayıb. Onun sözlərinə görə, yeni səfir Kristos Kapodistriasdır: "Bakıda fəaliyyət göstərəcək yunanıstanlı həmkarım, cənab səfir Kristos Kapodistriasa can sağlığı və Azərbaycan və Yunanıstan arasında ikitərəfli əlaqələrin inkişafında uğurlar arzulayıram!".

■ Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi, Azərbaycan Milli İncəsənət Muzeyinin Elmi araşdırmalar şöbəsinin müdiri Toğrul Əfəndiyev vəfat edib. Bu barədə Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova məlumat verib. O, sənətşünasın dünən vəfat etdiyini bildirib. Toğrul Əfəndiyev Azərbaycan incəsənət tarixinə dair bir çox elmi monoqrafiyaların, məqalələrin müəllifidir. Onun araşdırmalarında milli irs nümunəsi olan xalça sənətinə də xüsusi önəm verilib.

■ Vaşinqton Rusiya üçün bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıqla bağlı maneələr yaratmağa çalışır. Bu barədə Konqresin Nümayəndələr Palatasının silahlı qüvvələrlə bağlı komitəsinin yaydığı büdcə layihəsinə dair izahat materiallarında qeyd olunub. Sənəd Rusiyanın "İyirmilər qrupu"ndan (G20), Bazel Komitəsindən, Beynəlxalq Sığorta Nəzarəti Assosiasiyasından, Beynəlxalq Qiymətli Kağızlar Komissiyası Təşkilatından təcrid siyasətini nəzərdə tutur.



■ Azərbaycan iqtisadiyyatında yüksək artım dinamikası davam etməkdədir. Bunu iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli bildirib.

"Bu il ÜDM 5,1%, qeyri-neft məhsulları üzrə ÜDM 9,2% artıb. Bu il ərzində əsas kapitala qoyulan vəsait 16,8 milyard təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,2% artım deməkdir. Qeyri-neft-qaz ixracı ölkəmizdə 16,2% artaraq, 2,4 milyard dollara çatıb", - deyə nazir müavini vurğulayıb.

■ Xomeyni və Xameneinin rəhbərlikləri dövründə minlərlə ana övladlarını itirdiyi üçün gözü yaşlı qalıb, onların dərdinə şərikik. Bu sözləri molla rejiminin lideri Əli Xameneinin bacısı Bədri Hüseyni açıq məktubunda yazıb. O, Əli Xameneinin avtoritar rəhbərliyini tənqid edib: "Qardaşım İran xalqının səsini eşitmir. O, yalnız öz muzdlularının dediklərini İran xalqının səsi kimi qəbul edir. Ruhullah Xomeyni və Əli Xameneinin rəhbərliyi İran xalqına əzab və problemdən başqa heç nə verməyib. Qardaşımın siyasətindən narazıyam".

# Xəzərin sahilində suiti cəsədləri aşkarlandı



**Xəzər dənizinin Dağıstan sahillərində suitilərin kütləvi ölüm hallarının aşkarlanması ilə əlaqədar Xəzərin Azərbaycan bölməsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən genişmiqyaslı monitorinqlər keçirilib.**

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev Trend-ə bildirib ki, monitorinqlər zamanı dənizin Xaçmaz rayonu ərazisində İstisu qəsəbəsi, Tikanlıoba, Seyidli və Nabran kəndi istiqamətlərində ümumilikdə 17 suiti cəsədi aşkar olunub. "Suitilərin ölüm səbəbinin araşdırılması məqsədilə Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri ilə birgə cəsədlərdən nümunə götürüləcək və nəticələr barədə məlumat veriləcək", - o deyib.

# Azərbaycanda su çatışmazlığı

**Azərbaycanda ciddi şəkildə su azlığı müşahidə olunur. Ölkə ərazisinin 42%-i torpaq eroziyasına məruzdur. Bunu Dünya Bankının Avropa və Mərkəzi Asiya Dayanıqlı İnkişaf Departamentinin Ətraf Mühit, Təbii Sərvətlər və Mavi İqtisadiyyat üzrə baş mütəxəssisi Saşa Ayxberqer çıxışı zamanı bildirib.**

"Bu da, çox güman ki, torpağın daha aşağı məhsuldarlığının (1,2% qədər) və bundan irəli gələn ÜDM itkilərinin səbəbidir. Material məhsuldarlığı oxşar ölkələrə nisbətən daha aşağıdır və enerji istifadəsi olan sektorların əksəriyyətində enerji və emissiya yükü daha yüksəkdir. İqlim dəyişikliyi təbii aktivlərin həyat qabiliyyətinə mənfi təsir göstərəcək. Buna baxmayaraq, Azərbaycanda ətraf mühitə xərclər Aİ dövlətlərindən 20 dəfə aşağıdır. Bu xərclərə su resurslarının istifadəsi və mühafizəsi, havanın mühafizəsi, torpağın rekultivasiya, tullantıların utilizasiyası kimi xərclər aiddir və bunlar iqlim dəyişikliklərinə adaptasiya üçün kritik sahələrdir. Bu ciddi çətinliklər hələ də həllini gözləyir, lakin ilk addım olaraq, sistem dəyişikliklərinə investisiya, iqlim dayanıqlılığın artırılması və ətraf mühitin yaxşılaşdırılması üçün adaptasiya tədbirləri, təbii kapitalın mühafizəsi, aktivlərin diversifikasiyası və karbonsuzlaşdırma təbii sərvətlər bazasının qorunmasında ölkəyə köməklik edəcək", - deyə S.Auxberger bildirib. Yüksək-orta gəlirli ölkələrlə müqayisədə, Azərbaycan ekoloji itkilərdən, aşağı material və



torpaq məhsuldarlığından, suyun azlığından və yüksək emissiya intensivliyindən əziyyət çəkir. Saşa Ayxberqer çıxışı zamanı bildirib. O bildirib ki, GRID qiymətləndirməsi ölkənin ekoloji təzyiqlərin azaldılması və təbii resursların dəyərinin qorunması istiqamətində irəliləyişin kifayət olmadığını göstərir:

"Azərbaycanda narin asılı hissəciklər (PM2.5) ilə havanın çirkləndirilməsi əsasən küləklə gətirilən tozdan və karbohidrogen mənbələrdən irəli gəlir və qeyri-qəza ölümlərini 10%-18% artırır. Bu göstərici Şərqi və Mərkəzi Avropa regionunda ortalama göstəricidən yüksəkdir. Həmçinin, Qlobal Xəstəlik Yükü hesablamalarına görə, ölüm səviyyəsi ilə bağlı rifah itkiləri ÜDM-un 3%-12%-nə ekvivalentdir".

✍ **Sevinc**

# “İran Allahlıq iddiasındadır”

***Bu** gün İslam dininin İrandakı durumu və oradan dinimizlə bağlı dünyaya sərgilənən mənzərə heç də ürəkaçan olmayan müzakirələr yaradıb. Özünü İslam ölkəsi, şiə məzhəbinə malik bir dövlət sayan İran öz daxilində etiraz edən xalqlara münasibətdə dinin tövsiyələrinə necə əməl edir? İran din qardaşlarına, eləcə də düşmən mövqedə dayanan tərəflərə münasibətdə İslam dininin mühüm tövsiyələrini yerinə yetirirmi? “Həftə içi”nə müsahibə verən dinşünas Elşad Miri mühüm amillərə diqqət çəkib.*

## Müsahib

***- İran bir İslam ölkəsi kimi özünü necə aparır?***

- İslam dininin əsas məqsədi insanlara yol göstərmək, onun seçim hüququndan istifadə etməsinə yardım etməkdir. Allahın göndərdiyi Kitab - Qurani-Kərim insan üçün bir instruksiyadır.

Biz həmin instruksiyaya uyğun yaşadığımız zaman daha gözəl həyatımız olur, həyata fərqli şəkildə baxmağı öyrənirik. İslamın əsas məqsədi fərdlər üzərindən cəmiyyət anlayışını formalaşdırmasıdır. Hər hansı bir dövlətin verdiyi qərarlarda yanlışlar olduğu zaman onun İslamın adına çıxıb təqdim edilməsi düzgün yanaşma deyil. Bu, dinin cılızlaşdırılması mənasına gəlir.

İranda 1979-cu ildən bəri İran İslam Respublikası anlayışı formalaşıb. Həmin dövrdə bəzi İslam ölkələri sevinirdi ki, İslam, artıq bir dövlət olaraq bərqərar oldu və bundan sonra insanlarla bağlı müsbət irəliləyiş baş verəcək, dinlə bağlı inkişafın müəyyən təzahürlərini görəcəyik. Təəssüflər olsun, gözləntilər olmadı. İndiyədək İranda mövcud olan məzhəb, yəni şiəlik anlayışının müxalifətdən iqtidara keçməsi baş verdi.

Bu gün Allahın insanlara çatdırdığı, insanlardan istədiyi İslam anlayışını İran özününküləşdirərək, fərqli şəkildə, özünün istədiyi kimi insanlara təqdim edib, inandırıb.

Mən bu gün heç kimin dininə, məzhəbinə qarışmıram. Allah Qurani-Kərimdə “Qafinə” surəsində deyir ki, sizin dininiz sizə, mənim dinim mənədir. Faktiki olaraq siyasi xəritəyə baxdığımız zaman Pakistan, İran, Əfqanıstan, Mavritaniyanın adını İslam olan bir ölkə kimi görürük. Məsələn, Səudiyyə Ərəbistanı krallıqdır. Adında İslam olmayan, həm də müəyyən məzhəbi əsas almış bir ölkədir. Xristianlar hər hansı bir dövləti - xristian filan dövləti, yaxud Çin - buddist dövləti kimi təqdim etmir. Bu cür yanaşmanın özü yanlışlıqdır.

Ona görə də İranda olanların İslamla uyğunlaşdırılıb təqdim edilməsi tamamilə yanlışdır. Kənarda İslamı bilməyən insanlar bu dini İranla əlaqələndirirsə, orada baş verənləri görərək fikirlərini qeyd edirlərsə, bu, Allahın Quranda görmək istədiyi İslam deyildir.

***- İran şiə müsəlmanlarının müdafiəçisi kimi özünü təqdim edirsə, özü müsəlman ölkə olaraq İslam dəyərləri necə qoruya bilir?***

- İslamın yeganə mənbəyi Qurandır. Allah da Quranın 43-cü surəsinin 44-cü ayəsində deyir ki, “Biz sizi bu kitabla sorğu-suala tutacağıq”. “Bəqərə” surəsinin 256-cı ayəsində deyir ki, “Dində heç bir məcburiyyət yoxdur”. Dində məcburiyyət yoxdursa, insanların, xüsusən də qadınların istəsə də-istəməsə də başını örtdürərək onlara bu zülmü verməyin özü İranın Allahlıq iddiası deyilmi? Allah bunu bizdən tələb etmədiyi təqdirdə, onların bunu dövlət qanunu olaraq həyata keçirməsi nə dərəcədə İslama uyğun ola bilər? İslam həmişə seçim verib. Hər bir kəsin seçiminə də hörmətlə yanaşır. Məsələn, Qurani-Kərimin “Kəhf” surəsinin 24-cü ayəsində deyir ki, istəyən iman gətirsin, istəməyən kafir olsun. “İnsan” surəsinin 3-cü ayəsində deyir ki, istəyən şükür etsin, istəməyən naşükür olsun. Kim hansı yolu seçibsə, özü də onun nəticəsinə qatlanacaq, hərəkətinin nəticəsinə görə cavab verəcək. Bu gün İranda insanların başlarını zorla örtdürüb, sonra “əxlaq polisi” kimi strukturlar müəyyənləşdirib güc strukturlarından istifadə edirlərsə, bu, istər-istəməz partlayışa gətirib çıxaracaqdı. İranda baş verən dini təzyiqlər nəticəsində bizim danışdığımız, görüşdüyümüz bəzi insanlar var ki, onlar artıq gənclərin dinə qarşı çox aqressiv şəkildə yanaşdıqlarını açıq şəkildə bildirirlər.

Həmin dindən olmadıqlarını, ateist, deist, aqnostik olduqlarını ifadə edirlər. Bir adama məcbur namaz qıldırdığın zaman, başını örtürdüyün zaman, məcbur oruc tutdurduğun zaman bu, Allaha ziddir.

İranın başqalarına təzyiq edib kimin hansı dildə danışıbdanışmayacağına qərar verməsi, Allahın rolunu özünün rolu olaraq təqdim etməkdir. Axı dil mənim istədiyim seçim deyil. Mən bu dildə yaradılmışamsa, bu ölkədə doğulmuşamsa, bu, Allahın mənə verdiyi nemətdir. Hansısa xarici ölkədə yaşayıb, onların dilini bilmirəmsə bu, başqa şeydir. Öz ölkəmdəyəmsə, mənim bir Ana dilim varsa, öz dilimdə danışmağıma şərait yaratmalısan, öz dilimdə yazmağıma imkan verməlisən.



**Elşad Miri,**
dinşünas alim

Məsələn, Belçikada hökumət xristianlığı rəsmi din kimi qəbul etdiyi kimi, İslamı da rəsmi din kimi qəbul edib. Xristianlara edilən sosial yardımları müsəlmanlara da edir. İslamın bizdən istədiyi budur. Amma insan doğulduğu yerdə öz dilində danışa bilmirsə, bu, kimlərinsə Allaha qarşı Allahlıq iddiasıdır.

***- İranın İslam adı altında ölkə daxilində xalqların haqq və hüquqlarını tapdalaması hansı əks-təsirləri, hansı fobiyanı formalaşdırır?***

- İran uzun illərdir Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanla qardaşlığını davam etdirib. Bu sonuncu savaşdan və zəfərimizdən sonra bəzi insanların gözləri açıldı və gördülər ki, özünü “İslam müdafiəçisi, şiə müdafiəçisi” sayan İran Azərbaycanı müdafiə etmədi. Əksinə, düşmənə yardım etdi. Ermənilərə orada öz dilində məktəb açmalarına, danışmalarına, turist səfərlərinə şərait yaratdılar. “İranın müsəlmançılığı budur”, - deyə sorğulamağa başladılar. Məsələyə başqa bir prizmadan yanaşır, deyir ki, biz onların dinindən deyilik.

> *Bir adama məcbur namaz qıldırdığın zaman, başını örtürdüyün zaman, məcbur oruc tutdurduğun zaman bu, Allaha ziddir*

***- Bu gün Azərbaycanda İslam hansı ölkənin dini təsirləri altında qalıb? Bir qədər əvvəl biz DTX tərəfindən aşkar olunan məlum casus şəbəkəsinin aşkar edildiyini xatırlayırıq...***

- Casus məsələsi yeni deyildir. Sadəcə olaraq son günlər İranın aqressiyası fonunda daha çox görünməyə başladı. Azərbaycanda olan bəzi ilahiyyatçılar bunu İranın dini rəhbəri yox, müsəlmanların dini rəhbəri kimi təqdim edirlər. Təəssüflər olsun ki, bəzi media bunu bəhbəhlə tirajlayır. Əks-arqumentlərə imkan vermədiklərinin şahidi oluruq. Bu gün jurnalistlərimizin içindən çıxmadığı məsələ budur. Məsələn, bir insanı reklam edirlər, marketinqini formalaşdırırlar. Bu insanın İranla bağlı bir danışığını eşidə bilmirsən. Bu adamın qidalanma yeri odur. Həqiqətlərin bilinməsinə ehtiyac var. Azərbaycanı sevərək həqiqətləri ortaya çıxarmalıyıq. Biz dinlə bağlı olan kanallarda bunun şahidi oluruq. Kanallara çağırılanların kimlər olduğunu, danışdıqlarının nə olduğunu görürük.

***- Ermənistanın Azərbaycanla münasibətlərindən danışdıq. Hər bir din Allahın adından danışdığına görə, dinlər ədalətsizliyi, zülmü qəbul etməməlidir. İranın işğalçını dəstəkləməsini sualla qarşılayıq. İran müsəlman ölkəsidirsə, niyə Ermənistanı dəstəklədi?***

- İranın mahiyyətini bilməyənlər bu məsələdə təəccüblənə bilərlər. Mən həmişə bunu İrandan gözləmişəm. Onlar bizi özlərindən qopmuş torpaqlar olaraq görürlər. Müstəqilliyimizi həzm edə bilmirlər. Bəzən oradakı azərbaycanlıları danışdırırlar ki, biz onlara birləşməkdənsə, onlar gəlib bizə birləşsinlər. Burada əsas din anlayışı deyil.

Əgər bu gün Fransada ermənilər diaspora şəklində birləşib, öz sözlərini deyə bilirlərsə, Amerikanın siyasətində söz sahibi ola bilirlərsə, Azərbaycandan gedən insanlara bu şəraiti yaratmalıyıq. Orada yaşayan azərbaycanlıları öz ölkəmizə sevdirməliyik. Diaspora, sadəcə, bir yerə yığışıb, yeyib-içməkdən ibarət deyil. Mütəmadi olaraq iş apararaq, onlarla birlikdə bərabər olaraq bu məsələlərdə sabah söz sahibləri olacaqları, onların siyasətlərinə təsir edəcək bir mexanizm hazırlanmalıdır. Türkiyə diasporası ilə birgə işlər görülməldir.

Diasporamızla bağlı gördüklərimdə o qədər də sevincli deyiləm. Niyə biz xaricdə oxuyan gənclərin Azərbaycan adına xeyirli bir işlər görməsi üçün çalışmayaq? O ölkələrdə yaşayan, can-başla iş görən gənclər var, sabah onları bir araya gətirərik. Azərbaycanın lehinə işlər görə biləcək insanları küsdürürük. O insanları özümüzə qazandırmalıyıq. Diaspora, Xarici İşlər Nazirliyi bununla bağlı ciddi işlər aparmalıdır. Danışdıqlarımız ürəyimizə sirayət etməlidir. Bu təbliğat dini müstəvidə də aparılmalıdır.

***- Sözdə bir - “dinsiz-imansız” anlayışı var və əslində, onun fəlsəfəsi çox genişdir. Maraqlıdır, din yaranandan sonra insanlar dinə-imana gəldimi? Dinlər yaranmasaydı, “dinsizlik, imansızlıq” hökm sürüb gedərdimi və yaxud din adından istifadə edib haqsızı dəstəkləyənlərin, zülm edənlərin adı nədir?***

- Bu, geniş mövzudur. İslamı xristianlıq, yəhudilik, buddizim və sair dinlərlə müqayisə edirik. Allah İslam deyəndə adı peyğəmbərlə başlayan bir dinin adı olaraq təqdim etmir. İslam - barış, sülh deməkdir. Bu, bir yoldur, sistemdir, mexanizmdir. Əgər əlimdən və dilimdən başqasına zərər verirəmsə, İslam deyil. İslam həmişə dediyini deyib.

Əgər dediyini iddia edirsənsə, əməlinlə onu göstərməyi bizdən tələb edir. Məsələn, deyir ki, “Ey iman gətirdiyini iddia edənlər, əgər iddianda doğrusansa, saleh əməlinə bunu göstərməlisən”. Əsas əməldir həyata keçirdiklərimizdədir. Din anlayışı budur. Dindar sayan insanların sözləri ilə əməlləri uyğun gəlmirsə, dindar olan insanlar bir-birini qətlə yetirisə, aldadırsa, günah dində deyil, insanlardadır.

✍ *Tahirə Qafarlı*

---

*Məlum olduğu kimi, “G-7” ölkələri, Avstriya və Avropa İttifaqı Rusiya neftinə qiymət tavanı barədə birgə qərar qəbul ediblər. Dekabrın 5-dən etibarən həm qiymət tavanı, həm də Avropa İttifaqının Rusiyadan neft alışının qadağan olunmasını nəzərdə tutan qərarı qüvvəyə minib. Qeyd edək ki, Rusiya neftinə qiymət tavanı olaraq 1 barel üçün 60 dollar müəyyənləşdirilib.*



**Neft bazarını nə gözləyir?**

# Rusiya nefti üçün son qiymət...

## Müzakirə

Qərara əsasən neft bazar qiymətindən azı 5 faiz ucuz alınmalıdır. Bazar qiyməti Beynəlxalq Enerji Agentliyinin məlumatları əsasında hesablanacaq. 2023-cü il yanvarın ortalarından başlayaraq Avropa İttifaqı bazardakı dəyişiklikləri nəzərə alaraq hər iki aydan bir qiymət məhdudiyyəti mexanizminə yenidən baxacaq. Avropa İttifaqının 6-cı sanksiya paketinə əsasən üzv ölkələr Rusiyadan dəniz yolu ilə daşınan neft və neft məhsullarının alışını dayandırırlar. Bundan əlavə, tavandan yuxarı qiymətə alınan Rusiya neftinin daşınması, onun sığortalanması, broker və maliyyə xidmətlərinin təqdim olunması da qadağan edilib.

ABŞ Xəzinədarlığı da öz növbəsində Rusiya Federasiyasından neftin qiymətinin 60 dollar səviyyəsində məhdudlaşdırılmasını Rusiyanın dünya bazarlarına neft satmağa davam etməsi üçün kifayət hesab edib.

Qeyd edək ki, Avropa İttifaqı ölkələrinin bu qərarına rəsmi Moskvanın cavabı gecikməyib. Belə ki, Aİ ölkələrinin Rusiyadan daşınan neftə 60 dollarlıq tavan qiymət tətbiq etməsi barədə razılaşmaya münasibət bildirərkən Rusiya baş nazirinin müavini Aleksandr Novak deyib ki, neft hasilatımızı azaltmalı olsaq belə, yalnız bizimlə bazar şərtləri ilə işləyən ölkələrə neft və neft məhsullarını satacağıq.

O, ölkəsinin bazar şərtlərinə uyğun olaraq neft satmağa davam edəcəyini vurğulayıb: “Tavan qiymət tətbiqi bazar qaydalarını pozur. Rusiya hökuməti bu qərarın bazara zidd, səmərəsiz və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) bütün qaydalarının əksinə olduğunu dəfələrlə vurğulayıb. Biz tavanı qiymət tətbiqinin qeyri-sabitliyə, enerji qıtlığına səbəb ola biləcəyini düşünürük”. Bəs, görəsən, Avropa İttifaqı ölkələrinin Rusiyadan daşınan neftə 60 dollarlıq tavan qiymət tətbiq etməsi birjalara necə təsir göstərəcək? Neftin qiyməti dəyişəcəkmi? Ümumiyyətlə, dünyada Rusiya neftini əvəzləyəcək hansı mənbələr var? Bu qərardan sonra Azərbaycanı nə gözləyir?

■ **Məsələni qəzetimizə şərh edən Neft Araşdırmaları Mərkəzinin rəhbəri, enerji məsələləri üzrə ekspert İlham Şaban deyib ki, Rusiya nefti üçün qiymət həddi tətbiqinin bazarlara təsiri olacaq:**



“Təbii ki, ilk təsir emosional faktorlardan qaynaqlanacaq. Çünki bu hadisəni alovlandıran hər iki tərəfin, yəni bu qərarı verən ölkələr və Rusiyanın bir birinə zidd səsləndirdikləri fikirlər olacaq. Qərar faktiki olaraq cümə günü dünya birjaları bağlandığı zamana təsadüf etdiyindən biz onun təzahürlərini elə də hiss etmədik. Amma elektron hərraclarda cümə günü neft qiymətlərinin nəzərə çapmayacaq dərəcədə aşağı enməsini müşahidə edirdik: ”Brent” markalı neftinin fevral fyuçersləri 85,5 dollar ətrafında ticarət edilib. Digər tərəfdən, ABŞ Maliyyə nazirliyinin açıqlanan məlumatında bildirilib ki, Rusiya yuxarı hədd qiyməti nə keçmək şərti ilə qlobal bazarlarda neft tədarükçüsü kimi iştirak edə bilər. Onu da qeyd edim ki, noyabr ayı üçün Urals markalı neftin orta satış qiyməti Rusiya Maliyyə nazirliyinin açıqlamasına görə, 66,47 dollar təşkil edib. Amma noyabrda Rusiya neftinin ən ucuz partiyası 52 dollara satılıb. Yəni bu statistikadan çıxış etsək, Qərbin Rusiya neftinə qarşı atdığı son qadağa bazarda bərqərar olmuş vəziyyətin hüquqi müstəviyə keçirilməsidir. Məqsəd isə həm də Rusiyanın neft hasilatını azaltmağa vadar etməkdir”.

Ekspert qeyd edib ki, hazırda qlobal bazarda Rusiyanı əvəzləyəcək kifayət qədər oyuncular var: “Təbii ki, qlobal bazarda xüsusi çəkisi azalacaq Rusiyanın yerini digər oyunçular tutmalıdır. Bir məsələ də var ki, qazdan fərqli olaraq neftdə buna nail olmaq daha az müddət tələb edir. Bu oyuncular ABŞ, Səudiyyə Ərəbistanı, İraq, Liviya və Venesueladır. Onların nefti Rusiya neftinin itirilmiş həcmlərini əvəz edə bilər”.

Mövcud vəziyyətin Azərbaycana təsirlərinə gəlincə isə ekspert qeyd edib ki, bizim bazara çıxardığımız neftin qiyməti beynəlxalq birjalarda müəyyən edilmir: ”Azərbaycan qlobal bazara təsir etmək iqtidarında deyil. Azərbaycan nefti ”Brent”in gündəlik spot qiymətini rəhbər tutur. Amma Azərbaycan neftinin qiyməti ”Brent” markalı neftin qiymətlərini üstələyə bilər, çünki Avropada ”Urals” markalı neftinin satış həcmi azaldıqda yüngül neft markalarına ilk dövrdə tələbat artmalıdır. Burada söhbət Türkiyə vasitəsilə dünya bazarına çıxardığımız ”Ceyhan BTC Blend” markalı neftindən gedir. Digər tərəfdən, gələn həftə əvvəli neft qiymətlərinə təsir edəcək daha bir hadisəni müşahidə edəcəyik. Belə ki, OPEC+ çərçivəsində 2023-cü ilin yanvarından yeni kvotaların müəyyənləşdirilməsi. OPEC+ hasilatı azaltmaq haqda qərar verərsə, onda təbii ki, neft qiymətləri artıma doğru istiqamətlənəcək. Bazara əlavə neft çıxartmaq fikrində olacaqsa, biz cari ildə neftin hətta 80- dollardan aşağı qiymətə satılan partiyaları ilə də üzləşə bilərik”.

> *Hazırda qlobal bazarda Rusiyanı əvəzləyəcək kifayət qədər oyuncular var*

> *Dünyanın ikinci ən böyük neft istehlakçısındakı qərarlar neft bazarına birbaşa təsir edən faktorlar sırasındadır*

■ **Məsələyə münasibət bildirən Milli Məclisin deputatı Vüqar Bayramov isə deyib ki, hələlik bazarda ciddi volatillik müşahidə olunmasa da, birjalarda qiymət dəyişib:** ”Avropa İttifaqının Rusiyadan idxal etdiyi neftin hər barelinə 60 dollarlıq qiymət tavanı müəyyənləşdirməsi birjalara təsirsiz ötüşməyib. Hələlik bazarda ciddi volatillik müşahidə olunmasa da, dekabrın ilk günündən bəri bir bareli 90 dollara təklif edilən Brent markalı neftin qiyməti 83 dollaradək azalıb. Bu, son 4 gündə neftin qiymətində 8.0 faizdən çox azalmanın olması anlamına gəlir”. O bildirib ki, Səudiyyə Ərəbistanı da neft qiymətlərinə endirim tətbiq edib:

”Saudi Aramco yanvar təkliflərində Asiya üçün hər bareldə 2.20 dollar, the Saudi isə Avropa üçün 1.80 dollar qiymət azalmasına gedib. Bu iri istehsalçıların neft bazarında baş verənlərə və eləcə də Qərbin qərarlarına priventiv reaksiyasından xəbər verir. Çin karantin qaydalarını yumşaltsa da, ”Sıfır kovid” siyasətinin davam edəcəyini bəyan edib. Bu isə o deməkdir ki, yaxın aylarda da Çində neftə olan tələb yüksəlməyəcək. Dünyanın ikinci ən böyük neft istehlakçısındakı qərarlar neft bazarına birbaşa təsir edən faktorlar sırasındadır. Bu baxımdan, 2023-cü il üçün də neftin dünya bazar qiyməti ilə bağlı proqnozlar hələlik nikbin deyil”.

✍ *Sevinc*

# İran reallığı: bezmiş kütlə və amansız molla hökmranlığı

***İranda Məhsa Amininin ölümü ilə ölkənin bütün şəhərlərində başlayan etirazlar üç aydır davam edir. İğtişaşlardan əvvəl, sadəcə, Məhsa Amini qətlə yetirilmişdisə, bu üç ayda fərqli mənbələrə əsasən, 600-dən artıq insan təhlükəsizlik qüvvələri tərəfindən öldürülüb. Niyə? Günahları nə idi? Onlar 40 ildir çiyinlərində ağır yük kimi daşıdıqları hicabı atmaq və bunu edərkən kimsənin təzyiqinə məruz qalmamalarına təminat almaq istəyirlər. Bunun üçün qanunlar dəyişdirilməli, insanların müasirləşməsinə icazə verilməlidir.***



## Təhlil

Bunun ziyanı ruhani rejim üçün çox böyük olacaq - teokratik şiə məzhəbi üzərində qurulan bütöv bir idarətmə sistemi kökündən laxlayacaq. Hər halda, qadınların əsas tələblərindən birinə yaşıl işıq yandırıldı: hicab və ya qara çarşaba bürünməklə bağlı mütləq hökm qüvvədən salınmasa da, qadınların bu hökmə nə dərəcədə riayət etdiklərini nəzarətdə saxlayan "əxlaq polisi" adlı mənasız qurum ləğv edildi.

Bu gün yalnız iranlı qadınlar deyil, dünyanın bir çox mətbuatı və müstəqil ekspertlər əxlaq polisinin ləğvini qadınların qələbəsi hesab etsələr də, əslində bu, belə deyildir. Hər şeyə real baxmaq lazımdır: sözügedən qurum ləğv ediləndən sonra nə dəyişib? Bəlkə qadınlar çöldə- bayırda başaçıq gəzməyə başlayıblar? Xeyr!

ABŞ Dövlət Departamentinin sözçüsü də dünənki açıqlamasında əxlaq polisinin ləğv edilməsindən sonra İranda qadınların vəziyyətində yaxşılaşma əlamətinin olmadığını bildirib: "Təəssüf ki, İran liderlərinin qadınlara və qızlara münasibətini yaxşılaşdırdığına və ya dinc nümayişçilərə qarşı zorakılığa son qoyduğuna dair heç bir əlamət yoxdur. Biz İran rəsmilərinin qeyri-müəyyən və ya birmənalı olmayan bəyanatlarını şərh etməyi üstün tuturuq", - Dövlət Departamentinin rəsmisi deyib.

Eyni münasibəti Almaniyanın Xarici İşlər Nazirliyi də bildirib. Onlar bu qənaətdədirlər ki, əxlaq polisinin ləğvi İran qadınlarının həyatında heç nəyi dəyişməyəcək. İnsanlar azad yaşamaq istəyir, bunun reallaşması isə məzhəb üzərində qurulan hakimiyyət üçün son olardı.

■ **İsrailli kəşfiyyat üzrə analitik Amit Saarın sözlərinə görə, üç aydır davam edən etiraz aksiyaları İran hakimiyyətinə heç nəyi diqtə edə bilməyəcək. Yəni molla rejimi hələ uzun müddət hakimiyyəti nəzarətdə saxlayacaq.**

"Repressiv İran rejiminin bu etirazlardan sağçıxma ehtimalı böyükdür. Onlar bu cür etirazlarla mübarizə aparmaq üçün çox güclü vasitələrə malikdirlər. İnanıram ki, bu etirazlar səngisə belə, yaxın gələcəkdə İran rejiminin mütləq problemləri olacaq", - o deyib.

Bu arada İranın öz daxilində etiraz hərəkatını dəstəkləyən hüquq müdafiəçiləri də hakimiyyətin bu qərarının heç nəyi dəyişməyəcəyinə əmindirlər. Baxın: İran hakimiyyəti özünü guya xalqın səsini eşidirmiş kimi göstərsə də, əməldə başqa addımlar atır. Bunun ən açıq nümunəsi 600-dən artıq dinc vətəndaşın məhz öz hüquqlarını tələb etdikləri üçün qətlə yetirilməsi, onminlərlə insanın zindanlara atılması, neçə fəalın edam edilməsi və ya edilməsinə hazırlıqdır. Əgər İran hakimiyyəti doğrudan da səmimidirsə, niyə Məhsa Amininin ölümündə əli olan təhlükəsizlik əməkdaşlarını açıq şəkildə edam olunmaqla cəzalandırmır?

Mən qəddar deyiləm, amma ona görə edam hökmünü dilə gətirdim ki, onların əməlinə görə 600-dən artıq dinc insan öldürülüb və öldürülməkdə davam edir. Ölkə xaosa sürüklənib, dövlətə onmilyonlarla dollar ziyan dəyib və sair. Rəsmi Tehran Məhsa Amininin ölümündə əli olanlara bu cür cəza verməyi ağlının ucundan belə keçirmir. Niyə? Çünki onları cəzalandırdığı təqdirdə öz güc mexanizmini sarsıtmış olar.

Ofisi ABŞ-da yerləşən "Abdorrahman Boroumand" İnsan Haqları Mərkəzinin həmtəsisçisi Roya Boroumand qeyd edib ki, əxlaq polisinin ləğvi etirazçılar üçün çox gec atılmış addımdır: "Qadınların geyimi ilə bağlı bütün hüquqi məhdudiyyətlər və vətəndaşların şəxsi həyatlarına nəzarət edən qanunlar aradan qaldırılmadıqca, bu addım yalnız ictimai münasibətlər kontekstində qalacaq".

Beynəlxalq Əhli Beyt Vəqfinin prezidenti Fərmani Altunun sözlərinə görə, Vəqfin ənənə və inancında insanların əsas hüquq və qanunlarına hörmət etmək vacib şərtdir: "İran hörmət etdiyimiz ölkədir, lakin bəzi səhvləri düzəltməsi lazımdır. Təhlükəsizlik qüvvələrinin insanların adi geyiminə nəzarət etməsi etikadan kənardır və qadının nə geyinəcəyinə dair qayda tərtib etmək yanlışlıqdır", - cənab Altun bildirib. O deyib ki, rəsmi Tehran cəmiyyətin istək və tələblərinə diqqət yetirməlidir. İran xalqı çox fədakardır, qırx ildir embarqolara qarşı mübarizə aparır. Hökumət bunun qiymətini verməlidir. "Bu çağda edam hökmü vermək olmaz. Mən həmişə deyirəm ki, işgəncə dövlət terrorudur, edamlar isə dövlət cinayətidir. Heç bir dövlət ölüm hökmünü icra etməməlidir. Dövlət də bunu edirsə, dövlətin cinayət törədən şəxslə heç bir fərqi yoxdur", - F.Altun deyib.

> *"Mən həmişə deyirəm ki, işgəncə dövlət terrorudur, edamlar isə dövlət cinayətidir*

> *İran tənha xalq, tənha dövlətdir və bu onların öz seçimidir*

Əhli-Beyt Alimlər Dərnəyinin (EHLA DER) sədri Kadir Akaras bu fikirdədir ki, hökumətdən narazı insanlar etiraz etmək hüququndan istifadə edə bilərlər, amma ümumi insanları narahat etmədən, ictimai əmlaka zərər vermədən, zorakılığa əl atmadan.

■ **Təqaüddə olan türkiyəli səfir Aydın Nurhan Türk Asiya Strateji Araşdırmalar Mərkəzində (TASAM) dərc olunan "İran, yalnız sivilizasiya" başlıqlı məqaləsində İrandakı vəziyyəti "radikal bir üsyan hərəkatı" olaraq xarakterizə edib.** "İran modernləşmə küləklərindən qoruna bilməyəcək. Bir iranlı gəncin, hətta bir əsgərin başından Amerika beysbol papağını, ayağından Amerika idman ayaqqabısını, yaxud da əlindəki Amerika istehsallı telefonu, dinlədiyi Amerika musiqisini ala bilməzsiniz. Bunu etmək istəsəniz iğtişaş olacaq", - deyib keçmiş səfir.

A.Nurhan qeyd edib ki, İran tənha xalq, tənha dövlətdir və bu onların öz seçimidir. "Şiəliyi yaymaq, yalançı hökmranlıq dünyası qurmaq xəyalı real deyil. Bir türk diplomatı olaraq səmimi fikrim budur ki, iranlının isti bir ailəsi var - Türk dünyası. Ölkəmizdə yarım milyon iranlı yaşayır, onun fərqinə varmırıq. Biz eyni sivilizasiyanın övladlarıyıq. Divan ədəbiyyatımızdan və Mövlanəmizdən həzz alırlar. İran xalq inqilabına hamilədir", - diplomat fikrini yekunlaşdırıb.

Rejimin guya xalqın tələblərini yerinə yetirməyə başladığını göstərən görüntü xarakterli qərara qayıdaq. Əgər doğrudan da hakimiyyət İranda siyasi islahatlara gedirsə, niyə cəza maşınını dayandırmır? Bu günlərdə ölkədə çox qəribə hadisələr yaşanıb. İğtişaşlara dəstək verən ən aktiv dörd universitet tələbələri kütləvi şəkildə zəhərləniblər. Söhbət bu universitetlərdə təhsil alan 1200 tələbədən gedir - onlar universitet yeməkxanasında yedikləri yeməkdən zəhərləniblər.

Başqa bir misal göstərək: ölkəsindəki narazı kütlə ilə həmrəylik nümayiş etdirmək üçün hicabsız yarışan iranlı alpinist, əslən Güney Azərbaycanın Zəncan vilayətindən olan Elnaz Rekabinin ailəsinin yaşadığı ev dağıdılıb. Hətta Böyük Britaniyada yayımlanan İran International Fars xəbər kanalının paylaşdığı videoda 33 yaşlı Rekabinin ailəsinə aid evin xarabalıqları göstərilib.

Hadisəyə reaksiya verən CNN-nin aparıcısı belə bir reaksiya verib: "Gördüyünüz bu mənzərə İran adlı ölkədə yaşamağın nəticəsidir. Bu şəxs ölkəyə çoxlu medallar qazandıran çempiondur. O, ölkəsini qürurlandırmaq üçün çox çalışıb. Amma etdiklərinin müqabilində onun üzünə bibər qazı sıxıb, cəmi 39 kvadratmetrlik evini dağıdıblar".

Qeyd edək ki, Elnaz adlı həmin alpinist milli və beynəlxalq yarışlarda ölkəsinə ən azı 10 medal qazandırıb.

Daha bir missal: əgər doğrudan da xalqın tələblərinə qulaq asılırsa, sərt məzhəb ideologiyasının tətbiqində yumşalmaya gedilirsə, o zaman İran parlamentinin deputatı Hüseyn Cəlali niyə yenidən hədə-qorxu ritorikasında çıxış edib? Bu deputat deyib ki, məcburi hicab qaydasına əməl etməyən qadınlara qarşı yeni sanksiyalar paketi hazırlanıb.

Nədir bu, etirazçı qadınların bank hesabları bağlanacaq, yəni maliyyə vəsaitindən istifadə edə bilməyəcəklər. Bu nə qədər absurd plandır, dövlət insanları şantaj etməyə başlayıbmı, hər şey gözlənilməzdir. Bura İrandır, hər şeyi güc, gücü yetməyəndə isə fitnə-fəsad törətməklə, mənasız məzhəb nağıllarının cəhalətini yaratmaqla həll etməyə cəhd edilir.

✍ *Vüsal Tağıbəyli*

---

**Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları artıb. Statistikaya görə, artıq Mərkəzi Bankın valyuta ehtiyatları 7 milyard 969,2 milyon ABŞ dolları təşkil edir. Bu, noyabrın 1-i ilə müqayisədə 2,1 faiz çoxdur. Eyni zamanda, AMB-nin valyuta ehtiyatları ilin əvvəlinə nisbətən 12,6 faiz, son 1 ildə isə 13,5 faiz artıb. Yeri gəlmişkən qeyd edək ki, bu yaxınlarda maliyyə naziri Samir Şərifov Azərbaycana böyük məbləğdə valyuta daxilolmaları fonunda manatın məzənnəsinin möhkəmlənə biləcəyini deyib.**

# Manatın məzənnəsi sabit qalacaq

## Aktual

Amma nazir vurğulayıb ki, manatın məzənnəsi möhkəmlənərsə, bu, bir sıra mənfi nəticələr doğuracaq. Xüsusilə ixracla məşğul olan şirkətlərin problemlə üzləşə biləcəyi proqnozlaşdırılır. Maraqlıdır, görəsən, bu il qiymətlərin bahalaşması fonunda manatın möhkəmləndirilməsinə xərclənən vəsait nə qədər olub? Bu il manatın real məzənnəsi dollar ekvavalentində nə qədər təşkil edib? Gələn il manatı nə gözləyir? Yeni ildən üzən məzənnə rejiminin tətbiqi mümkündürmü?

■ **Mövzunu qəzetimizə şərh edən Liberal İqtisadçılar** Mərkəzinin sədri Akif Nəsirli bildirib ki, əgər hökumət manatın möhkəmləndirilməsi istiqamətində addımları dayandırarsa, dərhal milli valyutanın real məzənnəsi ortaya çıxacaq: "Məlum məsələdir ki, Azərbaycan hökuməti manatın məzənnəsinin sabit saxlanılması üçün hər il küllü miqdarda vəsait xərcləyir. Hesab edirəm ki, hökumət manatın saxlanılması üçün maliyyə bazarlarına yönləndirdiyi vəsaiti dayandırsa, ilkin olaraq 1 dollar Azərbaycanda təxminən 5-6 manat olar. Amma bu da son olmayacaq. Çünki Azərbaycanın daxilindəki məhsul, maddi nemətlər istehsalı azalacaq, xaricdən asılılıq artacaq, ona görə də daxildə dollara tələbat artdıqca, manatın da real məzənnəsi ucuzlaşacaq. Yəni, manat ucuzlaşa-ucuzlaşa gedəcək. O ki qaldı manatın saxlanılması üçün çəkilən xərclərə, bu istiqamətə hər ay təxminən 400-500 milyon dollar arası vəsait xərclənir. Məsələn, bu ilin oktyabr ayında manatın saxlanılmasına təxminən 460 milyon dollar vəsait sərf olunub. Noyabrda 380 milyon dollara yaxın vəsait xərclənib. Təbii ki, indiki halda manatın bu şəkildə möhkəmləndirilməsi yaxşı hal deyil. Bu makroiqtisadi göstəriciləri aşağı salır, istehsalı boğur, ölkə iqtisadiyyatının xarici amillərdən asılılığını gücləndirir. Təbii ki, bu üsuldan qısa bir mərhələ üçün istifadə etmək olar, amma bu proses təxminən əməliyyata yatırılan xəstənin süni tənəffüs aparatına qoşulması kimi bir dövrü əhatə etməlidir. Lakin uzun illərdir ki, hökumət bu istiqamətdə siyasətini dəyişmir, ölkə iqtisadiyyatı sanki süni nəfəs aparatında yaşayır".



Azərbaycanın üzən məzənnə siyasətinə keçmə ehtimalına gəlincə, ekspert bildirib ki, bununla bağlı konkret fikir bildirmək çətindir: "Hökumət istəsə sabah da üzən məzənnəyə keçə bilər. Ya da gələn ay bununla bağlı qərar verə bilər. Amma hökumətin manatı sərbəst buraxacağı real görünmür. Proseslərin gedişi onu göstərir ki, biz manatı sərbəst buraxmağa hazır deyilik. Hökumət gələn il də manatın möhkəmləndirilməsi istiqamətində addımlarını davam etdirəcək".

> *Hökumət gələn il də manatın möhkəmləndirilməsi istiqamətində addımlarını davam etdirəcək*

✍ *Tahirə*

---



■ **Dekabrın 6-da Moskvada Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinləri - Şahin Mustafayev, Aleksey Overçuk və Mher Qriqoryanın həmsədrliyi ilə üçtərəfli işçi qrupunun on birinci iclası keçirilib.**

Bu barədə Ermənistan hökumətinin mətbuat xidməti məlumat yayıb. Qeyd olunur ki, tərəflər Azərbaycan və Ermənistan arasında münasibətlərin nizamlanmasında, eləcə də iki ölkə arasında iqtisadi və nəqliyyat əlaqələrinin qarşısının alınmasına yönəlmiş səylər məsələsində Rusiyanın müsbət rolunu vurğulayıblar. İclas iştirakçıları Ermənistan, Azərbaycan və Rusiyanı birləşdirən dəmir yolunun tikintisi, dəmir yolu rabitəsinin inkişafı və daşımaların təşkili ilə bağlı məsələləri müzakirə ediblər.



■ **"Avroviziya" beynəlxalq mahnı müsabiqəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri İsa Məlikov vəzifəsindən ayrılıb. Bu barədə o, feysbuk hesabında bildirib.**

O bildirib ki, artıq bir neçə ildir üzərində çalışdığı layihələrin reallaşmasına vaxt ayıracaq: "İTV telekanalı və xüsusi ilə də kanalın rəhbərliyi ilə münasibətlərimiz möhtəşəm formalaşıb. İrəlidə bir çox planımız var və 2023-də xeyli maraqlı istiqamətlərdə çalışacağıq". İctimai Televiziya və Radio Yayımları Şirkətinin Mətbuat xidmətindən bildirilib ki, sözügedən vəzifəyə İTV Baş direktorunun müavini Vasif Məmmədov təyin edilib. Qeyd edək ki, bu il müsabiqə Ukrayna adından Böyük Britaniyada keçiriləcək.



■ **2021-ci il üçün Dövlət sosial müdafiə fondunun (DSMF) icra olunmuş gəlir və xərc göstəriciləri üzrə bəzi uyğunsuzluqlar aşkar olunub.**

Hesablama Palatasından verilən məlumata görə, fondun xəzinədarlıq vasitəsilə icra edilmiş gəlirləri və xərcləri barədə məlumatların üzləşdirilməsi ilə bağlı hüquqi aktlarda qeyd edilmiş tələblər tam təmin olunmayıb. Bu isə sair daxilolmaların məbləğinin hesabatlarda 8,7% çox göstərilməsi ilə nəticələnib. 2021-ci il ərzində 40,8 mln. manat məbləğində sığorta haqqının Fond tərəfindən sığortaolunanların fərdi şəxsi hesablarında əks etdirilməyib.



■ **NATO Baş katibi Yens Stoltenberq Ukraynadakı müharibənin sülh yolu ilə həlli üçün şərtlərin, şəraitin hazırda olmadığını bildirərək Qərb müttəfiqlərini Ukraynaya silah verməyə davam etməyə çağırıb.**

Stoltenberq bildirib ki, qışda münaqişənin daha sakit fazaya keçəcəyi ehtimalı olsa da, hər iki tərəf qüvvələrini yenidən toplamaq və yenidən silahlandırmaq istəyəcək və buna görə də NATO ölkələri Ukraynaya dəstək verməyə davam etməlidir. Rusiya tərəfindən müharibənin sülh yolu ilə sona çatmasını istəməyə dair heç bir əlamətin olmadığını deyən Yens Stoltenberq: "Diplomatik həll üçün indi şərtlər yoxdur", əlavə edib.



■ **"Terrorçuluğa qarşı mübarizə tədbirləri bu gün bütün dünyada aparılır. Mübarizə təkmilləşdirilsə də, terrorçuluq da artır, müxtəlif üsullarla tətbiq edilir".**

Bunu Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin birgə iclasında Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib. Ziyafət Əsgərov bildirib ki, ən çox belə cinayətlər bank köçürmələri zamanı həyata keçirilir: "Biz terrorçuluğa dəstək üçün edilən bank əməliyyatlarının qarşısını almağa çalışırıq. Bununla bağlı İnzibati Xətalar və Cinayət məcəllələrinə dəyişiklik edirik ki, belə hal aşkarlansa, hüquqi normativ aktlarımız da bunun qarşısını ala bilsin".



■ **ABŞ-ın Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyası (EIA) OPEC (Neft İxrac Edən Ölkələr Təşkilatı) ölkələrinin 2022-2023-cü illər üzrə gündəlik xam neft hasilatı proqnozunu yüksəldib.**

Gələn il OPEC ölkələri üzrə gündəlik ortalama neft hasilatının 29 mln. barel olacağı proqnozlaşdırılır ki, bu da əvvəlki proqnoz göstəricidən 0,15 mln. barel çoxdur. Hesabata əsasən, bu il OPEC ölkələri üzrə gündəlik ortalama neft hasilatı 28,61 mln. barel olacaq. Bu, əvvəlki proqnozdan 0,02 mln. barel çoxdur. Qeyd edək ki, ötən il OPEC ölkələri üzrə gündəlik ortalama neft hasilatı 26,28 mln. barel olub. 2020-ci ildə OPEC üzrə gündəlik neft hasilatı 25,6 mln. barel təşkil edib, 2019-cu ildə isə 29,27 mln. barelə bərabər idi.



**Ələmdar Şahverdiyev,**
BDU-nun Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru

# Naxçıvan necə muxtar respublika oldu?!

## Tarix

***Son dövrdə Naxçıvanın Muxtar Respublika statusunun ləğvi ilə bağlı müxtəlif iddialar irəli sürülür. Bu məsələ xüsusən Naxçıvan Gömrük Komitəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin ləğv edilərək əvəzində mərkəzə, yəni Bakıya tabe olan baş idarələr yaradılmasından sonra daha çox gündəmə gətirilir. Bəzi siyasi ekspertlər hesab edir ki, Azərbaycanın tərkibində ayrıca respublikanın olmasına ehtiyac yoxdur... Bəs görəsən, Naxçıvanın xüsusi statusu hansı tarixi zərurətdən meydana gəlib və hansı real siyasi situasiyada bərqərar olub? Hazırda həmin statusun ləğv edilməsindən danışmaq doğrudurmu?.. Bu və digər suallara cavabı tanınmış tarixçi alim, BDU-nun Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Ələmdar Şahverdiyevlə hafta.az üçün söhbətimizdə tapmağa çalışdıq.***

***- Ələmdar müəllim, 1918-1920-ci illərdə, yəni Çar Rusiyası imperiyasının çöküşündən və Naxçıvan ərazisi Azərbaycan Xalq Cümhuriyyətinin tərkibinə qatılmaqda olarkən həmin əraziylə bağlı beynəlxalq siyasi durum necə idi?***

- Xalq Cümhuriyyəti dövründə Naxçıvanda vəziyyət xeyli ziddiyyətli idi. I Cahan savaşında qalib gəlmiş dövlətlərin ali şurası, həmçinin Antanta blokuna daxil olan Böyük Britaniya, ABŞ və Fransa xüsusi qərar qəbul etmişdilər...1917-ci il dekabrın 17-də Parisdə bu üç dövlət nümayəndələrinin gizli görüşü olub və buna "Paris konvensiyası" da deyirlər. Həmin məxfi sənədə əsasən Cənubi Qafqaz Britaniyanın nəzarətinə, təsir dairəsinə verilmişdi...

Bir sözlə, Cənubi Qafqaz regionundakı, o cümlədən Azərbaycan və konkret Naxçıvan ərazisi ilə bağlı bütün məsələlərə Britaniya cavabdeh sayılırdı. Osmanlı Türkiyəsi müharibədə məğlub olmaq üzrə idi. Və Qərbə də bəlli idi ki, Türkiyə tezliklə Cənubi Qafqazdan çıxarılacaq və oraya ingilislər daxil olacaq. Elə məhz bəhs edilən qərarla bağlı 1918-ci ilin noyabrında, bildiyiniz kimi, ingilis qoşunları Bakıya daxil oldu.

Ondan sonra isə Parisdə Versal sarayında I Dünya savaşından sonrakı vəziyyət, yəni dünyanın bölüşdürülməsinin başa çatması məsələləri müzakirə olunurdu. Parisdə Ə.Topçubaşovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də yollanmışdı. Ermənistan nümayəndə heyəti bundan 8 ay öncə Fransa paytaxtına gəlmiş və həmin müddətdə apardıqları təbliğat və müzakirələr sayəsində Azərbaycan barədə mənfi rəy formalaşdıra bilmişdi. Ermənistan nümayəndə heyəti öz qarşısına iki əsas vəzifə qoymuşdu. Birincisi, Naxçıvanın, ikincisi isə Qarabağın Ermənistana birləşdirilməsi...

Ermənilərin təbliğatı və təkidi nəticəsində 1919-cu ildə Qərb ölkələri tərəfindən Naxçıvana 3 dəfə missiya göndərilmişdi. Birinci missiyaya İtaliya nümayəndələri rəhbərlik edirdi. Lakin bu missiya Naxçıvanda heç bir əhəmiyyətli iş görə bilmədi. İtalyanlar açıq etiraf etdi ki, region barəsində heç bir məlumata malik olmadıqları üçün oradakı məsələlərin həllinə hazır deyillər. Ona görə də Naxçıvana gələn ikinci missiya ingilislərdən ibarət oldu. 1919-cu ilin əvvəlində ingilis qoşunları Naxçıvanı tutdular və iyun ayında həmin ərazini də əhatə edən Araz Türk Respublikasını (1918, noyabr- 1919, iyun), eləcə də Naxçıvan Milli Komitəsini ləğv etdilər və nəticədə Naxçıvanda ingilis general-qubernatorluğu yaratdılar. Həmin general-qubernatorluq Naxçıvan ərazisinin Azərbaycandan tamamilə qoparılaraq Naxçıvana inteqrasiya edilməsi üçün çox ciddi addımlar atırdı. Parisdəki Azərbaycan nümayəndə heyəti bu prosesə qəti etirazını bildirdi və bununla bağlı ABŞ nümayəndə heyətinə, eləcə də prezident Vudro Vilsona yazılı məktubla müraciət edildi. Müraciətdə Naxçıvana daha ədalətli və obyektiv bir araşdırıcı missiya göndərilməsi xahiş edilirdi. Amerika tərəfi bununla razılaşdı və "Haskel missiyası" deyilən missiya göndərildi. Həmin missiya doğrudan da ədalətli oldu. Bu missiya Naxçıvan-Ermənistan sərhədində baş verənlər, Naxçıvanla Ermənistanın hansısa formada bir-biri ilə bağlı olub-olmaması və s. kimi məsələlərə obyektiv yanaşdı. Nəticədə amerikanlar birmənalı şəkildə bildirdilər ki, Naxçıvanın Ermənistana birləşdirilməsi real görünməyən bir işdi. Çıxış yolu olaraq ya Naxçıvanda neytral bir ərazi olaraq beynəlxalq statuslu bir idarə sistemi tətbiq olunmalıdır, ya da Naxçıvanın milli, dini, mənəvi, mədəni, siyasi, iqitisadi cəhətdən tam bağlı olduğu Azərbaycana birləşdirilməlidir...

1918-ci ilin noyabrında beynəlxalq razılaşmaya əsasən Osmanlı türk qoşunları Azərbaycan ərazisini tərk etməli olsa da, Naxçıvanda qalmış türk hərbçiləri geyimlərini dəyişərək yerli mülki əhaliyə qarışmışdı. Onlar Naxçıvan torpaqlarının Ermənistana birləşməsinə qarşı mübarizə aparan soydaşlarımıza dəstək verirdilər. O zaman Naxçıvan Hüseyn Naxçıvanski, Cəfərqulu Naxçıvanski qardaşlarının başçılığı ilə Naxçıvan Milli Müdafiə Komitəsi yarandı. Musa Kazım Qarabəkir Paşa da orada idi. O, Naxçıvanın aqibəti ilə bağlı Osmanlı Türkiyəsinin gizli tapşırıqlarını yerinə yetirirdi. Eyni zamanda özünümüdafiə qüvvələri mobil vəziyyətə gətirilmişdi. Nəticədə, Ermənistan tərəfindən olan hərbi müdaxilələrin qarşısı çox cəsarət və qətiyyətlə alınırdı. Bu mənada Naxçıvanın bir neçə kəndinə qəhrəman kənd adı vermək olardı. Onlardan biri də Nehrəm kəndi idi... Bu minvalla Naxçıvan xalqı mülki paltar geymiş türk hərbiçilərin də dəstəyi ilə erməni təcavüzünün qarşısını ala bildilər. Bu, beynəlxalq güclərə də öz təsirini göstərdi. Yəni onlar anladılar ki, xalqın gücü ilə hesablaşmadan Naxçıvanın taleyini həll etmək, o cümlədən onu Ermənistana birləşdirmək olmaz...

***- Bəs Rusiyada sosialist inqilabı adı altında hakimiyyətə gəlmiş bolşeviklərin vətəndaş müharibəsində də qalib gəlməsi Naxçıvandakı proseslərə necə təsir etdi?***

- Rusiyadakı vətəndaş müharibəsindən qalib çıxmış Leninin başçılıq etdiyi bolşevik-kommunist hökumətinin varlığı Naxçıvandakı proseslərin axarını dəyişdi. Və həmin hökumət özünü keçmiş çar Rusiyasının varisi elan etdiyindən keçmiş imperiyanın tərkibində müstəmləkə olmuş və sonradan müstəqillk əldə etmiş dövlətlərə, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinə də qarşı çox kəskin və amansız iddialarla çıxış etməyə başladı. Yəni onlar digərləri kimi, Azərbaycan ərazisini də Rusiyanın bir tərkib hissəsi qəbul edirdilər. Məsələlər ciddi düyünə düşmüşdü.

Əslində, Rusiyadakı vətəndaş müharibəsində kommunistlərin qələbə çalması Antanta blokunun məğlubiyyəti demək idi. Ona görə də bolşevik Rusiyası ağqvardiyaçı Denikinin ordusunu darmadağın edəndən sonra bütün qüvvələrini Qafqaza doğru cəmləşdirirdi... Və burada vəziyyətin mürəkkəbləşməsinə səbəb olan amillərdən biri də Osmanlı Türkiyəsində baş verən olaylar idi. 1918-ci ilin oktyabrında imzalanmış Mudros müqaviləsi Osmanlı dövlətinin kapitulyasiyanı birmənalı şəkildə təsdiqləyirdi. Bunun nəticəsində Osmanlı Türkiyəsinin ərazisi müxtəlif Avropa dövlətləri tərəfindən bir neçə hissəyə bölünmüşdü. Eyni zamanda Osmanlı Qafqaz İslam Ordusunu da Azərbaycanın ərazilərindən çıxarmağa məcbur oldu. Demək olar ki, təkcə Mustafa Kamal Paşanın başçılıq etdiyi Milli Mücadilə Mərkəzinin olduğu Sivas ərazisi qalmışdı. Və yalnız bu mücadilədən və Türkiyə qüvvələrinin ardıcıl qələbələrindən sonra artıq beynəlxalq arenaya siyasi güc olaraq yeni bir Türkiyə dövləti çıxdı...

Bu minvalla Naxçıvanın taleyində Atatürkün başçılıq etdiyi Türkiyə dövləti ilə Leninin kommunist Rusiyası dövləti arasındakı münasibətlər də böyük rol oynadı. Belə ki, o zaman hər iki dövlət Qərb tərəfindən qəbul olunmayan dövlətlər idi. Antanta dövlətləri də, Versal Ali Şurası da nə Atatürk, nə də Lenin hökumətlərini tanımaq istəyirdi. Bu baxımdan hər ikisi eyni çətin durumda olduqlarına görə, hətta Rusiya və Türkiyə arasında heç zaman dostluq olmamasına rəğmən yaranmış vəziyyət bu iki dövləti güclərini birləşdirərək müttəfiq olmağa vadar etdi. Belə olan halda 1919-cu ilin mayında Böyük Britaniya iqtisadi maraqlarını əsas götürərək öz qoşunlarının Güney Qafqazdan çıxarılmasına qərar verdi və burada 3 Qafqaz respublikasını-Azərbaycan, Gürcüstan və Ermənistanı öz talelərinin öhdəsinə buraxdı.

Odur ki, vəziyyət daha da mürəkkəbləşdi. Amma ingilis qubernatorluğu da Naxçıvandan çıxıb getdi. Və AXC hökuməti Naxçıvanda Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Paralel olaraq 1919-cu ilin yanvarında iki regionda Qarabağda və Naxçıvanda Azərbaycan öz general-qubernatorluqlarını yaratdı. Yəni həmin ərazilərdə öz yurisdiksiyasını bərpa elədi. Təəssüf ki, bolşevik Rusiyası Azərbaycana qarşı işğal niyyətindən əl çəkməmişdi. Və cəmi 1 il 3 aydan sonra, yəni 1920-ci ilin aprelin 27-28-də Qızıl Ordunun ölkəmizə təcavüzü nəticəsində Bakıda sovet hakimiyyəti quruldu. Və bundan sonra Naxçıvanın taleyi məsələsi yeni mərhələyə daxil oldu...

***- Yəqin ki, yenə də əsas ziddiyyətlər Rusiya və Ermənistan tərəfindən yaradılırdı?***

- Bəli. Sovet Ermənistanı deyilən qurum bolşeviklərdən istifadə edərək

> *"Muxtariyyət statusu, ən azı, Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında yerüstü kommunikasiyalar bərpa olunana qədər saxlanmalıdır*

Naxçıvanı özünə birləşdirməyə çalışırdı. Atatürk Türkiyəsi yenidən məsələyə müdaxilə etdi. Bu məsələ əsasən iki görüşdə müzakirə olundu: Moskva və Qars görüşlərində...

1921-ci ilin martında Moskvada keçirilmiş görüşdə Türkiyə, Rusiya və Ermənistan nümayəndə heyətləri iştirak edirdi. Azərbaycan heyəti görüşə qatılmamışdı - ölkəmizi Türkiyə təmsil edirdi. Türkiyə tərəfi çıxış yolunu Naxçıvanın Türkiyəyə birləşdirilməsində görürdü. Lakin Rusiya və təbii ki, Ermənistan tərəfi də buna qəti etirazını bildirdi.

Belə olduğu halda qərara alındı ki, xüsusi komissiya yaradılsın və həmin qurum məsələni geniş araşdırdıqdan sonra bir daha müzakirəyə çıxarılsın. Eyni zamanda üç Qafqaz respublikasının: Azərbaycan, Ermənistan və Gürcüstanın da bu məsələni öz aralarında müzakirə etmələri və sonradan Türkiyə və Rusiyanın bir orbitr kimi yekun nəticəyə gəlməsi barədə də qərar verildi.

Moskva müqaviləsi imzalandıqdan sonra ikinci dəfə də görüş keçirildi. Amma bu yalnız Türkiyə və Rusiya nümayəndələrinin iştirakıyla qeyri-rəsmi bir görüş oldu. Buna qədər Naxçıvanın Azərbaycana birləşdirilməsi haqda heç bir söhbət olmamışdı. Lakin bu dəfə məsələ çox mürəkkəb və gərgin xarakter aldığına görə qərara alındı ki, problemin yeganə həlli yolu Azərbaycanın tarixi ərazisi olduğu üçün Naxçıvanın bu ölkənin nəzarətinə verilməsidir və bu daha məqsədəuyğundur. Həmin qeyri-rəsmi Moskva görüşü bir növ Qars müqaviləsinə hazırlıq mərhələsi oldu. Nəhayət, 1921-ci il oktyabrın 13-də Qarsda Türkiyə, Rusiya, eləcə də Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndələrinin iştirakıyla müqavilə imzalandı və həmin müqaviləyə əsasən Naxçıvan Azərbaycan SSR-in yurisdiksiyasına verildi. Bu müqavilənin 5 və 6-cı mdadələri bilavasitə Naxçıvana aid oldu.

Həmin bəndlərə uyğun olaraq Türkiyə hökuməti öz üzərində belə bir öhdəlik saxladı ki, üçüncü hər hansı bir dövlət tərəfindən Naxçıvana hərbi müdaxilə təhlükəsi olarsa, Türkiyə öz ordusunu Naxçıvana yeritməlidir...

***- Üçüncü dövlət deyəndə konkret hansı ölkələr nəzərdə tutulurdu?***

- Üçüncü dövlət deyəndə İrandan, eyni zamanda Avropadan gələn təhlükələr nəzərdə tutula bilərdi... Çünki Rusiya və Ermənistan da bu sənədlə neytrallaşdırılırdı, onların nümayəndələri də müqaviləni imzalamışdı. Ən başlıca məsələ o idi ki, Ermənistanın Naxçıvana iddiasıyla bağlı məsələ qapadılırdı... 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra Nəriman Nərimanov Moskva qarşısında belə bir məsələ qaldırdı ki, necə ola bilər, Qarabağda kiçik sayda bir erməni toplumuna muxtariyyət verilir, ancaq Azərbaycanın əsas hissəsindən aralı düşmüş Naxçıvana eyni status verilmir... Və nəhayət, Kremlin bolşevik rəhbərliyi buna razılıq verdi- 1924-cü ildə məhz Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldı...

***- Necə hesab edirsiz, əgər Naxçıvana həmin muxtariyyət statusu verilməsəydi, bu sonradan o tarixi Azərbaycan torpağı üçün nəsə təhlükə yarada bilərdimi?***

- Əlbəttə... Birmənalı olaraq... Yəni o baxımdan ki, düşmənlərimiz Naxçıvan ərazisinin pərakəndə halda idarə sistemindən yararlana bilərdilər... Amma bütün hallarda Qars müqaviləsi Naxçıvanın təhlükəsizlik qarantı statusunu özündə saxlayırdı və indi də saxlayır...

Yadınızdadırsa, 2015-ci ildə Türkiyə ilə sərhəddə Rusiya qırıcısı vurulanda Dövlət Dumasında qaldırılmış məsələlərdən biri Qars müqaviləsinin ləğv olunmasıydı. Bu, təsadüfi deyildi...

***- Yəqin ki, SSRİ parçalanan dövrdə də Naxçıvanda muxtariyyətin olmaması yenə də bu ərazimiz üçün təhlükə yarada bilərdi? Kimlərsə, iddia irəli sürə bilərdi... Ermənistan daha cəsarətlə hücum edə bilərdi Naxçıvana...***

- Bəli, mən sizinlə tamamilə razıyam. Məsələn, SSRİ dağılan ərəfədə Naxçıvanın Kərki, Sədərək kimi bir neçə məntəqəsi işğal olundu. Amma muxtariyyət olmasaydı, bütöv rayonlar da işğal edilə bilərdi... Lakin vahid mərkəzdən idarəçilik, eləcə də Naxçıvanın müdafiəsində maraqlı olan Türkiyənin müəyyən dərəcədə kömək göstərməsi bu təhlükənin qarşısını aldı...

***- Sonda bir tarixçi alim, mütəxəssis olaraq hansı nəticəyə gəlirsiniz: hazırkı geo-siyasi dönəmdə Naxçıvan Respublikasının muxtariyyət statusunu ləğv etmək doğru olarmı?***

- Bütün həm uzaq, həm yaxın tariximizi təhlil etdikdən sonra belə nəticəyə gəlmək olur ki, hələlik Naxçıvanın statusunun ləğv edilməsi tarixi-siyasi baxımdan doğru deyil. Sadəcə olaraq orada Azərbaycan Respublikasının Konstitusiya və qanunlarına uyğun daha mükəmməl bir idarə sistemi formalaşdırılmalıdır. Amma muxtariyyət statusu ən azı Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında yerüstü kommunikasiyalar bərpa olunana qədər saxlanmalıdır. Əgər aradakı, yəni Ermənistan ərazisindən keçən avtomobil yolları, dəmir yolları, digər kommunikasiya vasitələri bərpa olunarsa, həmin ərazi eksklav halından çıxarsa, yalnız o halda Naxçıvanın statusunun ləğvi məsələsinə baxmaq olar. Bunlar baş vermədən, yəni indiki halda Naxçıvanın muxtariyyətini ləğv etmək Azərbaycanın və konkret həmin ərazinin gələcəyi üçün təhlükə törədə bilər...

*✍ **Sultan Laçın***

# İnfilyasiya > pensiya artımı

***Son 2 ildə Azərbaycanda infilyasiyanın səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib. Müstəqil ekspertlərin hesablamalarına görə, bu göstərici əhalinin adambaşına gəlirlərinin artım tempini, az qala, 5-6 dəfə üstələyib. Qeyd edək ki, Azərbaycanda qiymət artımı, infilyasiyanın rekord həddə çatdığını rəsmi qurumlar da etiraf edirlər. Belə ki, Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən, təkcə 2022-ci ilin sentyabrında ölkənin istehlak bazarında mal və xidmətlərin dəyəri aylıq ifadədə 3 faiz, oktyabrda isə 1,6 faiz artıb. Bu ilin yanvar-oktyabr aylarında istehlak qiymətləri indeksi 2021-ci ilin yanvar-oktyabr aylarına nisbətən 13,7 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 19,4 faiz, qeyri-ərzaq məhsulları üzrə 7,9 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 10,4 faiz artıb.***

Cari ilin oktyabr ayında istehlak qiymətləri əvvəlki ilin oktyabr ayına nisbətən 15,6 faiz bahalaşıb. O cümlədən 2022-ci ilin oktyabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 2,2 faiz, əvvəlki ilin oktyabr ayına nisbətən 21,0 faiz artım nümayiş etdirib. Bu zaman ərzaq məhsulları sentyabr ayı ilə müqayisədə 2,3 faiz, ötən ilin oktyabrı ilə müqayisədə 21,7 faiz bahalaşıb.

Komitə bəyan edir ki, cari ilin oktyabr ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma unun, makaron məmulatlarının, peçenyenin, vaflinin, mal, qoyun və toyuq ətinin, təzə balığın, südün, yoqurtun, kəsmiyin, xamanın, pendirin, yumurtanın, qarğıdalı yağının, portağalın, bananın, pomidorun, kartofun, soğanın, çuğundurun, yerkökünün, şəkər və şəkər tozunun, konfetlərin, çayın, meyvə şirəsinin, arağın, ucuzlaşma isə əsasən almanın, naringinin, limonun, xiyarın, kələmin, balqabağın, sarımsağın, göy lobyanın qiymətlərində müşahidə olunub.

Oktyabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 1,3 faiz, əvvəlki ilin oktyabr ayına nisbətən 10,9 faiz



artıb. Cari ilin oktyabr ayında əvvəlki ayla müqayisədə qeyri-ərzaq məhsullarından daha çox bahalaşma geyimin, ayaqqabıların, boyaların, mebellərin, paltaryuyan maşınların, televizorların, kompüterlərin, xalçaların, sabunların, diş pastalarının, ucuzlaşma isə əsasən kəsilmiş taxtaların, sementin və yazı kağızlarının qiymətlərində müşahidə olunub. Əhaliyə göstərilmiş ödənişli xidmətlər isə əvvəlki aya nisbətən 0,9 faiz, əvvəlki ilin oktyabr ayına nisbətən 12,0 faiz bahalaşıb. Cari ilin oktyabr ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən daha çox bahalaşma mənzillərin icarə haqlarında, ayaqqabıların, məişət cihazlarının, minik avtomobillərinin təmiri, ictimai iaşə, stomatoloji, bərbərxana və kosmetoloji xidmətlərin qiymətlərində, ucuzlaşma isə hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunub.

> *"Hökumət belə bir qayda-qanun müəyyənləşdirib ki, indeksasiya infilyasiya ilə deyil, orta aylıq əmək haqqına artım faizinə uyğun edilsin*

> *2017-ci ildə pensiya sisteminə edilən dəyişikliklər kifayət qədər nöqsanlıdır*

Hökumət isə Azərbaycanda inflyasiyanın əhaliyə təsirlərini azaltmaq üçün pensiyaları indeksasiya etməyə hazırlaşır. Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında 2023-cü ilin dövlət büdcəsinin müzakirəsi zamanı deyib. Onun sözlərinə görə, söhbət 15 faizdən az olmayan indeksasiyadan gedir. "İnfilyasiyanın əhaliyə təsirlərini azaltmaq üçün pensiyalar indeksasiya ediləcək. Bu indeksasiya əhəmiyyətli dərəcədə maliyyə vəsaiti tələb edir". Bəs, görəsən, pensiyaların 15 faiz civarında indeksasiya edilməsi bahalaşmanı nə qədər kompensasiya edə biləcək?

■ **Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı-ekspert Xalid Kərimli qeyd edib ki, pensiyaların indeksasiyası orta aylıq əməkhaqqının artım faizi ilə müəyyən edilir:** "2022-ci ildə də orta aylıq əmək haqqı təqribən 15 faiz ətrafında olacaq. Amma son rəqəm gələn ilin ilk ayında Dövlət Statistika Komitəsi tərəfindən müəyyənləşdiriləcək.

Bu vəsaitin yetərli olub-olmadığına gəlincə, 2022-ci ildə Azərbaycanda inflyasiya 13-14 faiz arasındadır. Ərzaq infilyasiyası isə 22 faiz təşkil edib. Nəzərə alsaq ki, pensiyaçıların xərclərinin strukturunda daha çox ərzaq, tibbi və kommunal xərclər əhəmiyyətli pay təşkil edir. Yəni, ərzaq xərcləri 22-23 faiz infilyasiyanı görəndə başa düşmək olur ki, bu artım təbii ki, pensiyaçıların xərc artımını layiqli şəkildə kompensasiya edə bilməyəcək. Amma bunun da alternativ yolu yoxdur. Hökümət belə bir qayda-qanun müəyyənləşdirib ki, indeksasiya infilyasiya ilə deyil, orta aylıq əmək haqqına artım faizinə uyğun edilsin. Bunun da obyektiv əsası var ki, işləyən insanların gəlirləri nə qədər artıbsa, pensiyaçıların gəliri də o qədər artsın".

■ **Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Rəşad Həsənov isə deyib ki, 2022-ci ildə inflyasiyanın artım tempini əks etdirən rəsmi rəqəmlərə baxsaq, bu rəqəmlərin orta aylıq əməkhaqqının artım tempindən aşağı olduğunu görərik:** "Bu da o deməkdir ki, pensiyalar inflyasiyadan 1-2 faiz çox arta bilər. Rəsmi rəqəmlərə görə, inflyasiya 13 faizdir, orta əməkhaqqı isə rəsmi olaraq 14.1 faiz artdı. Amma reallıqda inflyasiyanın 30 faizdən artıq olduğunu güman edirik. Bu aspektdən məsələyə baxanda indeksləşdirmə pensiyaçıları yoxsullaşmadan qorumayacaq".

Ekspert hesab edir ki, ölkədə pensiya islahatı aparılmalı, pensiya təminatı sistemi yenidən işlənməlidir: "Pensiya təminatı sistemi təşviqedici deyil. 2017-ci ildə bu sistemə edilən dəyişikliklər kifayət qədər nöqsanlıdır. 2022-ci ildə ortaya çıxan vəziyyət də bu təzadı özündə göstərdi. Çünki dünyanın heç bir ölkəsində pensiyaların indeksləşdirilməsi orta əmək haqqının artım tempi ilə uzlaşdırılmır. Bu, Azərbaycanda da əvvələr tətbiq edildiyi kimi, istehlak qiymətlərinin indeksi ilə, yəni infliyasiya ilə uzlaşdırılır ki, qiymət artımı təzyiqini neytarallaşdıra bilsin. 2017-ci ildə "Pensiya sistemi haqqında" qanunda edilən dəyişikliklər belə qeyri-ciddi yanaşmanın ortaya çıxmasına gətirib çıxardı. Hesab edirəm ki, "Əmək pensiyası haqqında" qanunun yenidən işlənməli, hökumət pensiya təminatı sisteminin təkmilləşdirilməsi ilə bağlı daha etibarlı mövqe ortaya qoymalıdır. Burada həm indeksləşdirmə, həm yaş həddinin aşağı çəkilməsi nəzərə alınmalıdır.

Eyni zamanda 1 milyon 700 minə yaxın kənd təsərrüfatı sahəsində məşğul olanların pensiya təminatı ilə bağlı mexanizmlər təkmilləşdirilməlidir. Daha etibarlı və davamlı bir sistem formalaşdırılmalıdır".

*✍ **Sevinc***

# Zaur Ustac nasir kimi

## (“BB” hekayəsi -böyük bir sahənin söz mənzərəsi)

***“BB” - Zaur Ustacın ən çox səs salan hekayəsidir, bəlkə də ədəbiyyat aləmində böyük rezanans yaradan on hekayədən biridir. Kriminal aləmin qloballaşan dünyada adi həyat tərzini qat-qat üstələdiyindən bu başlıq ilk görünüşdə “Bas bayıra” kimi anlaşıla bilər. Yaxud, hələ də bir çox hallarda milli mental dəyərlərimizi qoruyub saxlamağa üstünlük verdiyimiz Azərbaycanımızda onu bizə daha yaxın başqa adlarla da əvəzləyə bilərik. Məsələn: “Böyük Bakı”, “Bizim Bakı”, “Babamın babası”, “Balamın balası” və bu stildə adları daha da uzada bilərik.***



### Ədib

Lakin bizdən fərqli olaraq Zaur Ustac bu adı yenə də qloballaşan dünyanın başqa - bəlkə də daha vacib bir sahəsinə - bazar iqtisadiyyatının şah damarı sayılan ticarət sahəsinə yönəldə bilmiş və son otuz ildə baş verənlərdən bir qisminin mənzərəsini təsvir etməklə maraqlı süjet xətti üzərində gözəl nəsr nümunəsi yaratmışdır.

Hekayə nəsrin kiçik növlərindən biridir. Ya birinci şəxsin dili ilə söylənilir, ya da üçüncü şəxsin təsəvvüründə canlandırılır. Oxucu ilə arada daha tez səmimiyyət yaransın deyə bir çox qələm sahibləri avtobioqrafiq təsir bağışlayacaq tərzdə əhvalatı birinci şəxsin dili ilə nəql etməyə üstünlük verirlər. Zaur Ustac bəzi sələflərinin yolu ilə gedərək, hətta Qərb ədəbiyyat nümunələrindən bəhrələnərək adıçəkilən hekayədə məhz, bu üsulu seçmişdir. Nəsrin digər sahələrində olduğu kimi hekayədə də zaman və məkan anlayışı əsasən mücərrəd olur, lakin konkret göstəricilər də qadağan deyildir.

“20.12.2021-ci il, Bakı vaxtı ilə səhər saat 9.00, mən artıq işdəyəm” - hekayə bu cümlə ilə başlayır. Texnikanın inkişafı nəticəsində müasir insan dünyanın istənilən məkanında baş verən hadisə barədə tez bir zamanda xəbər tuta bilir. İndi həyatda elə hadisələr baş verir ki, onlar bədii əsərlərdə təsvir olunanlardan daha maraqlı təsir bağışlayır. Oxucunun diqqətini ilk cümlədə cəlb etmək lazımdır ki, sonra nəql edəcəyin istənilən hadisəni ona maraqla dinlətdirə biləsən. Zaur Ustac ilk cümləsi ilə oxucunun diqqətini özünə cəmləşdirməyi bacarmışdır.

“Günün mətbu nəşrlərini vərəqləyirdim ki, telefonlardan biri zəng çaldı”. Bununla da o, həm öz iş yerindəki vəziyyəti təsvir edir, həm də oxucunu ona danışacağı hansısa qəribə əhvalatı dinləməyə hazırlayır.

Beləliklə, ofisin telefonlarından biri zəng çalır. Dəstəyi xadimə qaldıraraq cavablandırır və əsərin əsas personajına ötürür. “Karvansara” dərgisinin baş redaktorunun dördüncü müavininin baş köməkçisinin birinci köməkçisi Əli Mülayim özünü təqdim edir və zəng vuran xanımın məqsədini öyrənməyə çalışır. Təqdimatın qeyri-adi uzun şəkildə görünməsi heç də oxucunu dolaşığa salmaq məqsədi daşımır, sadəcə, hürriyyətçilik dövründə belə kolantay vəzifə bölgülərini nəzərə çarpdırmaqla Zaur Ustac planlı dövrdən müstəqillik zamanına keçidin bəzi əndazədən çıxma hallarını təsvir etmiş olur. Həm də oxucuya şərait yaradır ki, qırışığı açılsın, özünü cəmləşdirsin, fikrini hekayədə nəql olunacaq əhvalata yönəltsin, çünki indi onun üçün gözlənilməz bir hadisədən söhbət açılacaq.

“BB” şirkətinin nümayəndəsi İlahə xanım telefonda Əli Mülayimin nəzərinə çatdırır ki, qarşıdan yubileylər gəlir, özü də ikisi birdən; həm şirkətin yaranmasının ildönümüdür, həm də şirkətin rəhbəri Bəy Bala müəllimin ad günü olacaq. Bu münasibətlə bos müsahibə vermək istəyir, ona görə ofisə dəvət olunur. Dəvəti məmnuniyyətlə qəbul edir, çünki onların işi elə müsahibələr hazırlamaq, maraqlı əhvalatları yazmaqdır.

Beləliklə, “BB” şirkəti ofisinin yerləşdiyi ünvanını dəqiqləşdirən Əli Mülayim dərhal jurnalistin şans alətləri hesab olunan qələm, bloknot, diktafon və fotoaparatı çantasına qoyaraq, necə deyərlər, tədarükünü görüb üz tutur deyilən ünvana.

Zaur Ustac müsahibə götürüləcək adamın ofisini - işgüzar şəraitini belə təsvir edir: “T şəkilli masanın üzərində barmaq basmağa boş yer yox idi. Disklər, kitablar, bir neçə işlək vəziyyətdə olan noutbuk və sonsuz sayda kağız-kuğuz   Bu mənzərəni insan öz gözü ilə görməsə, sözlə ifadə etmək çox çətindir”, - deyir. Bundan sonra o, salamlaşma və təqdimolunma səhnəsini təsvir edir:

“- Əli Mülayim.

- Çox gözəl, Əli müəllim. Vallah, indi elə zəmanədə yaşayırıq ki, mülayim olmayıb neyləyəcəksən ki? Lap yaxşısını elə siz eləmisiniz. Mülayim olun!”

Bu, kiçikdən kiçik dialoq-tanışlıq vasitəsilə Zaur Ustac oxucuya, bəlkə də cəmiyyətə böyük mətləblərin sirrini açır. Sanki ölkəmizdə mövcud olan jurnalist-məmur faktoru bu iki-üç kəlmədə öz əksini tapıb. Harın, rüşvətxor, təpədən dırnağadək korrupsiyaya qurşanıb qudurmuş bəzi məmurların qarşısında heç bir sosial müdafiəsi olmayan, hüquqları yalnız kağız üzərində qorunan jurnalistin mövcudluğunu qorumaq, elementar yaşayış tələbatını ödəmək üçün mülayim olmaqdan başqa çıxış yolu qalırmı?

Qalırsa da, bu yol mübarizlik yolu deyil, sonda onu həbsə aparacaq əzilmək, sındırılmaq, şərlənmək, ölkədən didərgin salınmaq yoludur. Bu yol itki yoludu, gedər-gəlməz yoldu, çox adam gedib, hələ geri qayıdan olmayıb. Bir nəfər yarı yoldan - Türkiyədən qayıtmışdı, o da dərhal həbsə atıldı.

Burda elə görünə bilər ki, əsərin zirvəsinə yaxınlaşma prosesi gedir. Ya elə bir hadisə baş verəcək ki, kulminasiya hesab olunacaq, ya da Bəy Bala müəllimlə Əli Mülayim hansısa sözə görə anlaşmayacaq, bununla da müsahibə alınmayacaq. Əslində, əsəri maraqlı edən elə bu cür süjetlərdir, dirənişdir, personajlar arasında yaşanan dramatiklikdir. Zaur Ustac burda belə görüntü yaratsa da başqa yol seçib. Axı onun personajı hansısa Vulkan, İldırım, Şimşək ləqəbli birisi deyil, sadəcə Mülayimdir. Bəy Bala müəllim onu anlayacaq birisini tapdığına görə uşaq kimi sevinir və dərhal niyyətini açıqlayır. Özünün 55, şirkətin yaranmasının 20 illiyini müsahibinin diqqətinə çatdırır. Amma özünü elə göstərir ki, onun buna ehtiyacı yoxdur, elə-belə, sözgəlişi “mətbuatda, televiziyada bu barədə məlumat getsin”, deyir.

Əsərin bu yerində Bəy Bala müəllim gözlənilmədən bir eyham vurur:

“Bir də xahiş edirəm o maskanı çıxardasınız. Burada kim var ki? İnanın səmimiyyətimə, bunlar hamısı boş şeydir. Can verən də, alan da, bax, o kişidir!”.

Burda Zaur Ustac üstüörtülü olsa da diqqəti iki məqama yönəldib. Birincisi, dünyanı ağuşuna götürmüş Koronavirus pandemiyası nisbətən səngisə də, qapalı məkanlarda maskasız gəzmək qadağası tam olaraq aradan qaldırılmamışdı. Bəy Bala müəllim öz iş otağında maskasız əyləşsə də qonağının maskada oturmağı onu narahat edirdi, tıncıxdırırdı. İkinci məsələ isə bunun məcazi mənasından gedir. Bir də görürsən məmur hansısa jurnalistin səmimiyyətinə inanır, ağzın qoyur Allah yolunda, nə istəyir, danışır. Danışığı xəlvətcə lentə alan jurnalist cənabları bir müddət sonra bunu üzə çıxardaraq yayır və aləm bir-birinə qarışır. Ya da əksinə olur, məmur jurnalisti dilə tutub danışdırır, onun səsini yazır, rəhbərlərinə qarşı istifadə edir. Maskalanmış insanlardan cəmiyyətdə hər nə desən gözləmək olar.

Zaur Ustac məharətlə bu eyhamı vurub tez də üstündən adlayıb keçir. Mirzə Ələkbər Sabir demişkən: “Səs salma, yatanlar ayılar, qoy hələ yatsın!”.

“Dedi (Söhbət Bəy Bala müəllimdən gedir - Ə.A) və əlini tavandan sallanan bahalı çilçırağa tərəf elə şəstlə qaldırdı ki, məndə də qeyri-iradi olaraq gözəgörünməz qüvvənin bu çilçırağın içində gizləndiyinə əminlik hissi yarandı”.

Beləliklə, Əli Mülayim Bəy Bala müəllimdən müsahibə götürür. Bəy Bala müəllim uşaqlığından başlayaraq həyatında baş verən bütün hadisələri xırdalığınadək incələyib danışır. Böyük ölkənin necə kiçik dövlətlərə parçalandığından, oxuya-oxuya alverə qurşandığından, xırda ticarətini inkişaf etdirərək ailə biznesi yaratdığından tutmuş ailədaxili baş verən kiçik detallaradək hər nə baş veribsə, hamısını açıqlayır. Burda yazıçı məharəti dərhal özünü büruzə verir. Zaur Ustac Bəy Bala müəllimin dili ilə Sovetlər ölkəsinin dağılması ilə müstəqillik əldə etmiş dövlətimizin hansı daxili fəsadlarla üzləşdiyindən, o vaxtkı insan təfəkkürünün bir andaca əriyib getməsindən və yeni yaranmış münbit bazar-ticarət əlaqələrinin sürətlə inkişafından və başqa mətləblərdən söhbət açır. Ən nəhayət, hər şeyi yerli-yataqlı danışıb rahatlıq tapandan sonra Bəy Bala müəllim soruşur:

“-İndi bu yazının adını nə qoyacaqsınız?

Fikrimdən “Bit Biznesi” keçsə də “Böyük Biznes” dedim.

- Bəlkə bu yazının adını elə “Böyük Bədbəxt” qoyasınız. Ya da heç nə lazım deyil. Yubiley-mubiley olmayacaq”.

Dahilərdən hansısa deyib ki, “bütün xoşbəxtliklər eynidir, bədbəxtliklər isə müxtəlif cür olur”. Zaur Ustacın baş qəhrəmanı da özünü “Böyük Bədbəxt” hesab edir. Baxmayaraq ki, evli-eşikli, qohumlu-əqrəbalı birisidir. Biznesi də özünün dediyi kimi Bakıdan vurub Dubaydan çıxan, Dubaydan vurub İstanbuldan fırlanaraq yenidən Bakıya gələn böyük şəhərlərdə adam sıxlığından istifadə edərək sürətlə artıb çoxalan nadir biznes sahəsidir. Bununla belə o, özünü böyük bədbəxt hesab edir. Deməli, xoşbəxlik var-dövlətdə, ailə-uşaqda, qohumlar və dostlar arasında ayın-şayın yaşamaqda deyil, səni anlayacaq birinin yanında olmaqdır. Bəy Bala müəllim məhz o gün - müsahibə verdiyi gün onu anlayacaq birini tapdığına sevinir və özünü xoşbəxt sanır.

“- Lap əla oldu. Xeyli yüngülləşdim. Başqa heç nə lazım deyil”, - deyir Bəy Bala müəllim. Bu qədər qohum-əqrəba, dost-tanış, biznesində istifadə etdiyi adamlar arasında onu anlayacaq bircə nəfər də olsun tapıb ürəyini boşalda bilməyən “Böyük Biznes” sahibi Bəy Bala müəllim Zaur Ustacın “BB” hekayəsini uğurlu nəsr əsərlərindən hesab etmək olar. Ən azından otuz illik bir qərinənin gözəçarpmayacaq panoraması canlandırılır bu hekayədə   Bilmədiyimiz, bəlkə də varlığına fikir vermədən adi hal kimi baxıb, yanından ötüb keçdiyimiz ciddi sahələr işıqlandırılıb bu əsərdə Yazıçının missiyası qələmə aldığı əhvalatı təkcə bədii mətnə çevirib cəmiyyətə təqdim etməkdən ibarət deyil, həm də sətiraltı olsa belə cəmiyyətə ideya verib hekayəsini hərtərəfli mənalandırmağı bacarmaqdır. Düşünürəm ki, Zaur Ustac burda qarşıya qoyulmuş tapşırıqların hər ikisinin öhdəsindən məharətlə gəlib.

“BB” hekayəsində təkcə şirkət qurub bizneslə məşğul olmaq deyil, çalışqan insan üçün götürüb inkişaf etdirəsi müxtəlif istiqamət və yollar mövcuddur. Ən əsası isə dövrün bir çox böyük sahələri bu kiçik həcmli əsərdə öz mənzərəsini əks etdirib.

20 noyabr 2022, Xırdalan şəhəri.

***✍ Müəllif: Əli bəy Azəri***
***“Xəzan” jurnalının baş redaktoru***

# Eşitmə məhdudiyyətli uşaqlar üçün xüsusi tədbir keçirildi ®

**3 Dekabr Beynəlxalq Əlillər günü münasibətilə eşitmə məhdudiyətli uşaqlar üçün inkluziv kukla teatrı tamaşası təşkil olundu.**



Nağılçı və bloqqer Aytac Qəmbərovanın səhnələşdirdiyi tamaşa həm eşitmə və nitq məhdudiyyətli uşaqlar, həm də tədbirə qoşulan digər uşaqlar tərəfindən böyük maraqla izlənilib. Jest dili pedaqoqunun iştirakı ilə baş tutan tədbirdə 50-dən çox uşaq yer alıb. Tədbirin əsas məqsədi əyləncə və sosiallaşma yolu ilə uşaqlara qarşılıqlı qayğı hissini aşılamaq olub. Tamaşa “Libraff” kitab mağazasının uşaq oxu zalında keçirilib.

Qeyd edək ki, eşitmə və nitq məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyası “Nar”ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətidir. “Bu Dünyanı Nağıl Edək” layihəsi çərçivəsində baş tutan tamaşanın video çarxı bütün uşaqların izləməsi üçün jestdili.az saytında yerləşdiriləcək. Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## HƏFTƏ REYTİNQ

### Həftənin İTTİHAMI



“Necə olur ki, bir parlamentdə 256 nəfər Azərbaycanın əleyhinə səs verir və bir nəfər olsun belə Azərbaycanın lehinə səs vermir? 30 ildir orada diplomatik korpusumuz fəaliyyət göstərir. 30 ildir müstəqilik. Yəni bu səfirlərin bir-iki şəxsi dostu da yoxdur? Münasibət quracağı 5-6 adam da yoxdur? Yəni hamı ermənilərin təsiri altındadır? Ermənilər kimi kiçik bir xalq hamını ələ alıb? Bu, inandırıcı gəlmir”. Bunu Milli Məclisin iclasında çıxışı zamanı deputat Fazil Mustafa bildirib.

### Həftənin QARŞILANMASI



Türkiyənin milli müdafiə naziri Hulusi Akar Azərbaycana səfər edib. Müdafiə naziri general Zakir Həsənovla görüşən nazir Akar Müdafiə Nazirliyinə gələrkən “Mehtər” marşı ilə qarşılanıb. Bu qarşılanma videosu sosial şəbəkələrdə böyük maraqla qarşılanıb.

### Həftənin MƏHKUMU



Argentinanın vitse-prezidenti Kristina Fernandes de Kirşneri həbs olunub. O, korrupsiya işi üzrə təqsirli bilinib. Argentinanın İkinci Federal Məhkəməsi siyasətçini 6 il müddətinə azadlıqdan məhrum edib. Bildirilib ki, o, dövlət vəzifəsində işləmək hüququndan da azad olunub.

### Həftənin QALMAQALI



“Best Model of Azerbaijan-2022” gözəllik müsabiqəsinin finalı baş tutub. Bəylər arasında qalib Natiq Xələfov, xanımlar arasında isə Liza Uzun olub. Liza Uzunun qalib gəlməsi digər xanım iştirakçıları özündən çıxarıb. Onlar təşkilatçı Elxan Paşayevi qalibiyyəti pulla satmaqda ittiham ediblər. Bunu əks etdirən videogörüntülər də yayılıb.

### Həftənin BƏYİ



Türkiyəli məşhur müğənni Sinan Akçıl evlənəcəyini açıqlayıb. Hafta.az Türkiyə mediasıına istinadən xəbər verir ki, həmkarı Aleyna Kalaycıoğlu ilə sevgili olan sənətçi ilk dəfə nikah masasına əyləşəcəyini bildirib. Qeyd edək ki, müğənni indiyə kimi 4 dəfə kəbin kəsdirərək evlilik həyatı yaşayıb.

### Həftənin QALİBİ



Dünya çempionatında 1/8 finalında Mərakeşlə İspaniya üz-üzə gəlib. Oyunun əsas vaxtı qolsuz başa çatıb. Əlavə hissələr oynanılıb. Əlavə vaxtda da hesab açılmayanda qalib penaltilər seriyasında müəyyənləşib. Penaltilər seriyası Mərakeşin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Mərakeş tarixində ilk dəfə 1/4 finala adlayıb, İspaniya isə evə yollanıb.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Qətər - 2022 Portuqaliyalı Qonkalo Ramos ilk qolunu vurmasını qeyd edir**

## “

## İnfilyasiya > pensiya artımı

**Xalid Kərimli,**
iqtisadçı-ekspert

Hökümət belə bir qayda-qanun müəyyənləşdirib ki, indeksasiya inflyasiya ilə deyil, orta aylıq əmək haqqına artım faizinə uyğun edilsin.

▸▸ Səh. 7

## STATİSTİKA



**■ 2022-ci ilin noyabr ayında pensiyaya çıxanalrın sayı açıqlanıb.**

Dövlət Sosial Müdafiə Fondundan (DSMF) hafta.-az-a verilən məlumata görə, ötən ay 945 nəfərə proaktiv qaydada yaşa görə əmək pensiyası təyin edilib. Bildirilib ki, rəqəmlər operativ məlumat əsasında hazırlanıb.



▸▸ Səh. 6

# İran reallığı: bezmiş kütlə və amansız molla hökmranlığı